# Azərbaycan Prezidentinin dərin islahatları vətəndaş müraciətlərində qaldırılan məsələlərin həllinə böyük inam yaradır

***Vətən deyib sevdiyimiz və asudə yaşadığımız doğma Azərbaycanımızın taleyinə və tarixinə şanlı səhifə kimi yazılan daha bir ili şərəflə yola saldıq. Əvvəlki illərdə olduğu kimi, ötən 2019-cu il də sülh, əmin-amanlıq, inkişaf, tərəqqi, islahat və yüksəliş ilinə çevrildi. Dövlətimizin başçısı, müdrik siyasi xadim İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində respublikamız nəinki regionda, dünya ölkələri sırasında da yüksək mövqelərini qorudu və sürətli inkişafına görə çoxlarını heyrətə saldı. Ulu öndər Heydər Əliyevin miras qoyduğu dövlətçilik prinsiplərini, mənəvi dəyərləri qoruyub saxlayan və zənginləşdirən Prezident İlham Əliyevin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəal iştirakı ilə həyata keçirdiyi inqilabi və dərin islahatlar xalqımızda bu günə və sabaha qəti inam yaratdı, həyata keçirilən islahatların böyük səmərə verəcəyinə, Azərbaycanda həyatın bütün sahələrinin davamlı inkişaf edəcəyinə, xalqın güzəranının daha da yaxşılaşacağına heç bir şübhə yeri qoymadı.***

***Ötən il aparılan islahatlar ölkənin həyatına yeni impuls verdi, vətəndaşların fəallığı daha da artdı, onlar qarşılaşdıqları problemlərin həlli, ümumi inkişafımıza müsbət təsir göstərən işlərin davam etdirilməsi, eyni zamanda, dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi, hər yerdə şəffaflığın artırılması və insanları narahat edən məsələlərin operativ həlli üçün aktiv həyat mövqeyi nümayiş etdirdilər. Bu mövqe Prezident Administrasiyasına daxil olan vətəndaş müraciətlərində də hərtərəfli əksini tapıb. AZƏRTAC Prezident Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılovun 2019-cu ildə vətəndaşları düşündürən, onları narahat edən məsələlərin dövlət qurumlarında necə həll olunmasından, bu işə ölkə rəhbərliyi tərəfindən göstərilən yüksək diqqət və tələbkarlıqdan bəhs edən geniş təhlili məqaləsini oxuculara təqdim edir.***



## *Ölkənin hərtərəfli inkişafına və daha qüdrətli Azərbaycanın qurulmasına xidmət edən köklü islahatlar*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə “Nəsimi ili” elan edilmiş 2019-cu il həm də bütün sahələrdə dərin və köklü islahatlar ili kimi tariximizə həkk olundu. Ötən ilin olduqca zəngin və maraqlı hadisələri ölkə həyatını son dərəcə canlandırmaqla yanaşı, dövlət başçısının əvvəlki illərdə bəyan etdiyi siyasətin ardıcıllığını, dönməzliyini, qarşıya qoyduğu iqtisadi və siyasi konsepsiyaların yerinə yetirilməsi üçün güclü siyasi iradəyə sahib olduğunu bir daha sübut etdi.

**2018-ci ilin aprelində keçirilən növbədənkənar Prezident seçkilərində yenidən Azərbaycan xalqının tam etimadını qazanmış İlham Əliyev bütün işlərində olduğu kimi, xalqa verdiyi hər bir sözün arxasında qətiyyətlə duraraq Azərbaycanın qüdrətini daha da artırmaq, onu hərtərəfli inkişaf etmiş ən güclü dövlətlərdən birinə çevirmək üçün inamlı addımlarını, başladığı böyük proqramların həyata keçirilməsini uğurla davam etdirmişdir.** Ötən dövr ərzində görülən işlərin miqyası, ölkənin idarə olunmasında və digər sahələrdə dərin islahatların aparılması Azərbaycanın beynəlxalq mövqeyinin getdikcə güclənməsinə səbəb olmuşdur. Ölkə rəhbəri bu islahatlarla, demək olar ki, yeni idarəetmə sistemi yaratmağa, cəmiyyətin inkişafına əngəl olan bütün maneələri qətiyyətlə aradan qaldırmağa, xalqın arzuladığı tam şəffaf və demokratik bir sistem qurmağa nail ola bilmişdir.

2019-cu ildə aparılan islahatların böyük bir qismi idarəetmə strukturlarının təkmilləşdirilməsi ilə əlaqədar olmuş, bununla bağlı dövlət başçısının hələ ilin əvvəlində imzaladığı “Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2019-cu il 17 yanvar tarixli fərmanından sonra il ərzində 30-dan artıq fərman və sərəncam verilmişdir. **Ümumiyyətlə, ötən il Azərbaycan Prezidentinin imzaladığı 308 qanun, 452 fərman, 880 sərəncamın bir çoxu dövlət quruculuğu, sosial-iqtisadi sahədə idarəetmə və s. məsələlər barəsində olmuşdur.** Bütün bunlar cəmiyyətdə böyük rəğbətlə qarşılanmışdır.

**Dövlət başçısının 2019-cu il aprelin 3-də imzaladığı “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” fərmanla bu sahədə böyük dəyişikliklər baş vermişdir.** Struktur islahatlarının davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 noyabr tarixli sərəncamı ilə Prezident Administrasiyasının strukturunda edilmiş dəyişiklikləri də xüsusi vurğulamaq lazımdır. Bu sərəncamla Azərbaycan Prezidenti respublikadakı bütün strukturların işinin yenidən qurulmasının vacibliyini göstərmiş və bu işin davamlı olacağını bir daha təsdiq etmişdir.

Azərbaycan Prezidenti ötən ili səciyyələndirərkən bir daha vurğulamışdır: **“2019-cu il tarixdə dərin islahatlar ili kimi qalacaq. Siyasi islahatlar, kadr islahatları, struktur islahatları, iqtisadi, siyasi və sosial sahələrdə aparılan islahatlar bizim gücümüzü artırmışdır”.**

rayonunda “ASAN xidmət” mərkəzinin açılışında isə Azərbaycan Prezidenti 2020-ci ili “Könüllülər ili” elan etdiyini xüsusi vurğulayaraq, könüllülüyün bizim genetik kodumuza yazılmış sarsılmaz dəyərlərimizdən biri olduğunu, xalqımıza xas olan bütün amilləri, əlamətləri özündə cəmləşdirdiyini bir daha qeyd etmişdir. Hazırda fəaliyyət göstərən 2 DOST mərkəzi bir çox xidmətləri özündə cəmləşdirməkdədir və bu mərkəzlərin sayı yaxın vaxtlarda 31-ə çatdırılacaqdır.

Azərbaycanın beynəlxalq qurumlar tərəfindən qəbul edilən və sevinc doğuran uğurları gündən-günə artır. 2019-cu ildə iqtisadi sahədə əldə edilən nailiyyətlərimiz Dünya Bankı, Davos Forumu və digər nüfuzlu

> *“Bizim müstəqilliyimiz başlıca vəzifəmizdir. Azərbaycan müstəqil dövlətdir, qürurlu dövlətdir və gələcəyə çox nikbin baxan dövlətdir.”*
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

Azərbaycanda aparılan islahatların miqyası olduqca geniş və şaxəlidir. Bu islahatlar hətta inqilabi islahatlar adlandırılır və onların ölkə həyatının bütün sahələrində, xüsusilə idarəetmə strukturlarının işinin yenidən qurulmasında böyük rol oynayacağı şübhə doğurmur. Xalq tərəfindən xüsusi dəstəklənən bu islahatlar ölkənin inkişafını yeni səviyyəyə qaldırmaq, cəmiyyətin inkişafına mane olan, hər bir vətəndaşı narahat edən və ölkənin imicinə xələl gətirən neqativ halları tam aradan qaldırmaq məqsədi daşıyır.

Aparılan islahatların innovativ xarakter daşımasını Azərbaycan Prezidentinin qarşıya qoyduğu vəzifələrə uyğun olaraq **Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan** və 100-dən artıq xidməti özündə cəmləşdirən DOST mərkəzlərinin fəaliyyətinə dövlət başçısının verdiyi qiymət daha aydın göstərir. Prezident İlham Əliyev deyir: **“Bizim siyasətimiz, demək olar ki, DOST mərkəzlərində öz əksini tapır – islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni, bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək”.**

Bu il fevralın 12-də Kürdəmir

beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilərək, ölkəmiz ən islahatçı dövlətlərdən biri hesab edilmiş və bu islahatların istər siyasi, istər iqtisadi, istər sosial, istərsə də idarəetmə sahələrini əhatə etməsi xüsusi vurğulanmışdır.

Azərbaycan Prezidenti beynəlxalq maliyyə qurumlarının ölkədə görülən işlərə, o cümlədən həyata keçirilən islahatlara verdiyi qiyməti dəyərləndirib sanki ölkəmizin uğurlarını görmək istəməyən qüvvələrə üzünü tutaraq bildirir: **“Davos Ümumdünya Forumu bizi çox yüksək yerlərə layiq görür, o cümlədən islahatların aparılması istiqamətində. İslahatlara meyillilik və rəhbərliyə olan inam əmsalına görə biz dünyada birinci onluqdayıq. Özü də bunu biz yox, Davos deyir. Dünya Bankı nə deyir? Deyir ki, Azərbaycan 20 ən islahatçı ölkə sırasındadır. İslahatlar bizim şüurlu seçimimizdir. Elə fərz edə bilərik ki, nəyə lazımdır bu islahatlar? Onsuz da hər şey yolunda gedir, ölkə inkişaf edir, yeni müəssisələr açılır, abadlıq işləri görülür. Yox, struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar lazımdır”.**

Aparılan köklü islahatlara görə Azərbaycan Dünya Bankının yaydığı “Doing Business 2020” hesabatında 190 ölkə arasında 34-cü yerdə, Dünya İqtisadi Forumunun “Qlobal Rəqabətlilik İndeksi” üzrə 141 ölkə arasında 58-ci yerdə, ümumi infrastrukturun inkişafına görə isə 26-cı yerdə qərarlaşmışdır. “İnklüziv inkişaf indeksi” adlı illik hesabatda Azərbaycan inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerə yüksəlib. Azərbaycanın kreditin əlçatanlığı üzrə 1-ci, biznesə başlamaq imkanları üzrə 9-cu, müqavilələrin icrası üzrə 28-ci yeri tutması diqqətəlayiqdir. Yuxarıda göstərilən mötəbər qurumların təhlillərindən görünür ki, Azərbaycanda aparılan balanslaşdırılmış iqtisadi, sosial və humanitar siyasət dünyada davamlı inklüziv inkişafın planlaşdırılması və idarə edilməsinin ən yaxşı nümunəsidir.

**Azərbaycan Respublikası sosial siyasət üzrə də dünya lideri mövqeyindədir.** Davos Dünya İqtisadi Forumunun təsisçisi və prezidenti professor Klaus Şvabın hazırladığı hesabatda 141 ölkənin iqtisadi potensialı təhlil edilərək həmin ölkələrin iqtisadi imkanları rəqabətlilik, sosial siyasətin vəziyyəti, əhali arasında gəlirlərin nə dərəcədə ədalətli bölünməsi əsasında müəyyən edilmiş və burada ölkəmiz üçün sosial siyasətin əsas prioritet olduğu müəyyən edilmişdir.

Növbəti Davos Forumu ərəfəsində forumun rəsmi saytında **“Prezident İlham Əliyev: Azərbaycanın vahid və dayanıqlı dünyada rolu”** adlı məqaləsi dərc edilmiş və orada Azərbaycan Prezidenti ölkəmizin son illər qazandığı nailiyyətləri 2007-ci ilin göstəriciləri ilə müqayisə etmiş, bu illər ərzində Azərbaycan iqtisadiyyatının həcminin 80 faiz, o cümlədən qeyri-neft sektorunun 2,1 dəfə, strateji valyuta ehtiyatlarının 13 dəfə artdığını, yoxsulluğun 4 dəfədən çox azaldığını, işsizliyin 4,9 faizə endirildiyini, 2009-cu və 2019-cu illərdə forum tərəfindən Azərbaycanın ən islahatçı ölkə hesab edildiyini, bu dövrdə ölkəyə 111 milyard dollar xarici investisiya qoyulduğunu, ölkəmizin dünya enerji sisteminə töhfəsini, bu sahədə qlobal layihələr həyata keçirdiyini vurğulamışdır.

Azərbaycan Prezidenti hər il olduğu kimi bu il də Davos Forumunun ən fəal iştirakçılarından biri kimi dünyanın 117 ölkəsindən 53 dövlət və hökumət başçısının, habelə beynəlxalq maliyyə qurumlarının, dünyanın aparıcı şirkətlərinin rəhbərlərinin iştirak etdiyi bu nüfuzlu tədbirdə diqqət mərkəzində olmuşdur. Qısa zaman ərzində dövlət başçısı onlarla görüş keçirmiş, Azərbaycanın iqtisadi inkişafına təkan verəcək müasir texnologiyaların ölkəmizə gətirilməsi barədə həmin qurumların rəhbərləri ilə danışıqlar apararaq razılıq əldə etmiş, xüsusilə Dünya İqtisadi Forumunun Azərbaycanda regional mərkəzinin yaradılması haqqında forumun icraçı direktoru Borge Brende ilə niyyət protokolu imzalamışdır. Artıq 50 illik yubileyini qeyd edən bu mötəbər forum çərçivəsində qəbul edilən mühüm qərarlardan biri də “Naxçıvan” və “Qoşadaş” yataqlarının Rusiyanın “LUKOIL” şirkəti ilə birgə işlənilməsi barədə razılıq əldə edilməsidir.

Prezident İlham Əliyevin apardığı daxili və xarici siyasət ölkəmizin mənafelərinin bütün beynəlxalq təşkilatlarda və dövlətlərarası münasibətlərdə cəsarətlə qorunmasına, xalqın böyük etimad və hörmətinin qazanılmasına gətirib çıxarmışdır. Dünyada baş verən siyasi burulğanlar, hərbi münaqişələr və iqtisadi böhranlar mühitində böyük güclərin qurduğu siyasi labirintlərdə dəqiq mövqe nümayiş etdirməsi və düzgün yol seçməsi xalqın öz Prezidenti ətrafında sıx birləşdiyini, Azərbaycanın bütün təhdidlərə və çağırışlara hazır olduğunu bir daha təsdiq etmişdir.

**Azərbaycan Prezidenti Vətənimizin müstəqillik illərində, xüsusilə son 26 ildə əldə etdiyi nailiyyətləri səciyyələndirərkən çox haqlı olaraq qeyd edir ki, Azərbaycan artıq 26 ildir sabitlik şəraitində yaşayır və bu illər ərzində ölkəmiz bir əsrə bərabər inkişaf yolu keçmişdir və bu gün dünya miqyasında güclü ölkələr sırasındadır.**

Azərbaycanın dünya arenasında sabit və güclü mövqeyini son dövrlərdə, xüsusilə ötən 2019-cu ildə respublikamızda keçirilən çoxsaylı beynəlxalq tədbirlər, dünyanın bir çox tanınmış dövlət və hökumət başçılarının Azərbaycana, eləcə də dövlətimizin başçısının xarici ölkələrə rəsmi və işgüzar səfərləri bir daha təsdiq etdi. Keçən il dünyanın 40-dan çox dövlət və hökumət başçısı Bakıya səfər etmiş, ölkədə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının, Qoşulmama Hərəkatının zirvə görüşləri keçirilmiş, 120-dən artıq üzv ölkənin yekdil qərarı ilə Azərbaycan ən nüfuzlu beynəlxalq təsisatlardan sayılan bu hərəkata sədrliyi öz üzərinə götürmüşdür. Dünya Dini Liderlərinin Zirvə Görüşünə 70 ölkədən dini liderlər təşrif buyurmuş, bundan başqa UNESCO-nun Dünya İrs Komitəsinin sessiyası da respublikamızın paytaxtında keçirilmişdir. Aydındır ki, belə tədbirlər bundan sonra da ardıcıl surətdə davam etdiriləcək və onlar Azərbaycanın beynəlxalq nüfuzunun getdikcə artmasına xidmət edəcəkdir.

**Azərbaycanın iqtisadi uğurlarının qazanılmasında respublikanın Prezidenti İlham Əliyevin ulu öndər Heydər Əliyev siyasətinə sadiqliyi,** onun müəyyən etdiyi neft strategiyasını uğurla həyata keçirməsi, neftdən əldə edilmiş gəlirlərin qeyri-neft sektorunun inkişafı, həmçinin ölkənin və xalqın mənafeyi üçün sərf edilməsi, bəzi ölkələrdə olduğu kimi, neftdən asılılığın xalqın faciəsinə gətirib çıxarmasının qarşısının alınması, sosialyönümlü siyasətə geniş meydan verilməsi, xalqın bütün təbəqələrinin faydalandığı infrastruktur layihələrinin böyük cəsarətlə reallaşdırılması, iqtisadiyyatın müasir texnologiyalar əsasında yenidən qurularaq şaxələndirilməsi mühüm rol oynamışdır.

> *“Azərbaycan artıq 26 ildir ki, sabitlik şəraitində yaşayır və bu illər ərzində ölkəmiz bir əsrə bərabər inkişaf yolu keçmişdir”.*
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

Məhz belə bir siyasətin xalq tərəfindən dəstəklənməsi, ölkədə sosial istiqamətdə görülən əvəzsiz işlər, o cümlədən 3 min 300-dən artıq məktəbin, 700-dən çox tibb ocağının tikilməsi, ölkənin hər yerində yol infrastrukturunun tamamilə yenidən qurularaq 16 min kilometrdən çox yol çəkilməsi, ölkənin energetika sahəsində asılılığının tam aradan qaldırılaraq enerji ixracatçısına çevrilməsi, alternativ enerji mənbələrinin işə salınması, bir vaxtlar xaricdən maliyyə yardımları alan Azərbaycanın artıq donor ölkə kimi tanınması, əlbəttə, Prezident İlham Əliyevin yeritdiyi düzgün və alternativsiz siyasətin nəticəsi hesab edilməlidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarında və əməli fəaliyyətində xalq üçün çalışdığını və görülən bütün işlərin Azərbaycan vətəndaşlarının rifahına xidmət etdiyini dönə-dönə vurğulamışdır. Prezidentin sözü ilə işi arasında bir vəhdətin olduğunu, verilən hər vədin yerinə yetirildiyini görmək üçün sadəcə həyata keçirilən sosial layihələrə nəzər salmaq kifayətdir.

Dövlət başçısının keçən ilin əvvəlində bəyan etdiyi kimi, vergi və gömrük orqanlarında aparılmış islahatlar nəticəsində əldə edilən vəsaitin sosial paket kimi əhaliyə təqdim edilməsi reallaşmış və bu islahatlar nəticəsində əldə olunmuş 1 milyard manatdan çox əlavə vəsait hesabına 4,2 milyon insanı əhatə etməklə minimum əməkhaqqı 2 dəfə, minimum pensiya məbləği 70 faiz, bəzi müavinətlər 50 faiz, bəziləri isə hətta 2 dəfə artırılmışdır. Bu gün Azərbaycan alıcılıq qabiliyyəti nəzərə alınmaqla minimum əməkhaqqı göstəricisinə görə MDB ölkələri arasında 2-ci, minimum pensiyanın dollarla ifadəsinə görə isə 1-ci yerdədir. Azərbaycan Prezidenti 2020-ci il yanvarın 13-də keçirilən müşavirədə xüsusi olaraq qeyd edir: **“Sosial sahədə gedən müsbət proseslər və vətəndaşların rifah halının yaxşılaşdırılması bizim üçün prioritet məsələ olaraq qalır”.**

Ölkədə gedən bütün proseslərin nəbzini tutmaq, hər bir şəhərdə və rayonda gedən abadlıq, quruculuq proseslərini tənzimləmək, eyni zamanda, yaranan problemlərin həlli üçün operativ tədbirlər görmək baxımından respublikanın regionlarına edilən vaxtaşırı səfərlər böyük əhəmiyyət daşıyır.

2019-cu il oktyabrın 28-də Ağdaşda olarkən Prezident İlham Əliyevin dediyi fikirlər onun vətəndaşların problemlərinə göstərdiyi diqqəti bir daha sübut edir: **“Vətəndaşlara xidmət etmək bizim borcumuzdur. Prezident kimi mənim əsas vəzifəm ölkə daxilində olan problemləri həll etməkdir. Ona görə də mən bölgələri gəzirəm, hər il bəlkə də 30-35 rayonda oluram. Elə rayonlar var ki, 10 dəfədən çox olmuşam. Amma 4-5 dəfədən az olduğum rayon yoxdur. Ona görə gəlirəm, vəziyyətlə tanış oluram, mövcud olan problemləri vətəndaşların dilindən eşitmək istəyirəm ki, o problemlər həll olunsun. Ona görə mənim işimin əsas hissəsini daxili məsələlər tutur və məhz buna görə Azərbaycan çox uğurla inkişaf edir”.**

Ötən il “Şimal-2” Elektrik Stansiyası, Sumqayıt Kimya Sənaye Parkında “SOCAR Karbamid”, “SOCAR Polymer” yüksək sıxlıqlı polietilen, Pirallahı Sənaye Parkında “Diamed Co” şpris istehsalı zavodları, Ağdaşda Biyan Sənaye Parkı, Samur çayı üzərində yeni körpü və digər obyektlər istifadəyə verilmiş, Azərbaycan Prezidentinin səfərləri zamanı bir sıra tarix və mədəniyyət abidələrinin təmir və bərpadan sonra açılışı keçirilmiş, eyni zamanda, vətəndaşlarla çoxsaylı görüşlər olmuşdur. Ağsu, İsmayıllı və Şamaxı rayonlarında zəlzələdən zərər çəkən insanlar üçün qısa vaxtda 580 fərdi yaşayış evi tikilmiş, eyni zamanda, 4 və 5 mərtəbəli binalarda 164 mənzil istifadəyə verilmişdir. Bir çox rayonda tarix-diyarşünaslıq muzeyləri, xalçaçılıq müəssisələri, uşaq bağçaları və digər obyektlər inşa edilmiş, su təchizatı və kanalizasiya sistemləri yenilənmişdir.

*(ardı 4-cü səhifədə)*

# Azәrbaycan Prezidentinin dәrin islahatları vәtәndaş müraciәtlәrindә qaldırılan mәsәlәlәrin hәllinә böyük inam yaradır

*(әvvәli 3-cü sәhifәdә)*

2019-cu ildә Azәrbaycanın hәyata keçirdiyi qlobal layihәlәrin icrası davam etdirilmiş, noyabr ayında Türkiyәnin Әdirnә vilayәtinin İpsala qәsәbәsindә Cәnub Qaz Dәhlizinin әsas hissәsinin – TANAP qaz kәmәrinin açılışı olmuş, 6,5 milyard dollara başa gәlәn vә gәlәcәkdә Azәrbaycana 100 milyard dollaradәk gәlir gәtirәcәk bu kәmәr işә salınmış, TAP layihәsi üzrә әsas işlәr isә yekunlaşmaqdadır. Hәmçinin Azәrbaycanın son illәrdә yaradılan logistika imkanları öz bәhrәsini vermәkdәdir vә tәkcә keçәn il Azәrbaycan üzәrindәn 13 milyon 950 min ton yük daşınmışdır.

Azәrbaycanın 2019-cu ildә qazandığı nailiyyәtlәr barәdә Prezident İlham Әliyev Dünya Azәrbaycanlılarının Hәmrәylik Günü vә Yeni İl münasibәtilә Azәrbaycan xalqına tәbrikindә әtraflı bәhs edәrәk, xalqın güzәranını yaxşılaşdırmaq üçün görülәn işlәri, iqtisadi göstәricilәri, hәmçinin sosial tәdbirlәri şәrh etmiş, bütün islahatların xalqın güzәranını yaxşılaşdırmaq üçün hәyata keçirildiyini qeyd edәrәk demişdir: **"Bizim sosial siyasәtimiz bir daha onu göstәrir vә mәn dәfәlәrlә bәyan etmişәm ki, bizim siyasәtimizin mәrkәzindә Azәrbaycan vәtәndaşı dayanır. Әminәm ki, gәlәcәk illәrdә iqtisadi imkanlarımız genişlәndikcә sosial sahәyә bundan da böyük diqqәt göstәrilәcәk".**

Azәrbaycanın 2019-cu ildә әldә etdiyi bütün nailiyyәtlәr ümummilli lider Heydәr Әliyevin әsasını qoyduğu vә sonrakı illәrdә Prezident İlham Әliyev tәrәfindәn uğurla davam etdirilәn innovativ inkişaf strategiyasının bәhrәsidir. Bu gün Azәrbaycanın son 16 ildә әldә etdiyi göstәricilәr tәhlil edilәrkәn onun dünyanın

> *"İslahatların әsas hәdәfi Azәrbaycanı müasir, inkişaf edәn vә gәlәcәkdә inkişaf etmiş ölkәyә çevirmәkdir, insanların rifah halını yaxşılaşdırmaq, daha güclü, qüdrәtli dövlәt qurmaqdır".*
>
> **İlham ӘLİYEV**
> **Azәrbaycan Respublikasının Prezidenti**

әn güclü dövlәtlәrindә olan artım sәviyyәsindәn heç dә geri qalmadığı mәlum olur.

Dövlәt başçısı bu il yanvarın 13-dә keçirilmiş vә 2019-cu ilin yekunlarına hәsr olunmuş müşavirәdә Azәrbaycanın iqtisadi nailiyyәtlәrini qonşu ölkәlәrlә, xüsusilә Ermәnistanla konkret rәqәmlәr әsasında müqayisә etmişdir. Azәrbaycan Prezidentinin çıxışını hәr kәsin izlәdiyini nәzәrә alaraq, demәliyik ki, göstәrilәn rәqәmlәr müqayisәolunmaz dәrәcәdә fәrqlәnir vә onların hamısını tәkrar sadalamağa ehtiyac belә yoxdur. Azәrbaycanın nailiyyәtlәrinin göz qabağında olduğu aydın görünür. Tәkcә bir fәrqi göstәrmәk kifayәtdir ki, ordumuz dünyanın әn güclü orduları reytinqindә 52-ci yerdә, Ermәnistan ordusu isә 96-cı yerdәdir. Burada bir mәsәlәni mütlәq nәzәrә almaq lazımdır ki, Azәrbaycan bütün nailiyyәtlәri öz gücü, öz imkanları hesabına, apardığı düzgün iqtisadi siyasәt sayәsindә әldә etmişdir. Şübhә yoxdur ki, öz işğalçılıq siyasәtinin girovuna çevrilәn, әslindә vassal dövlәt olaraq xarici ianәlәr, yardımlar hesabına yaşayan Ermәnistan mütlәq iqtisadi cәhәtdәn çökәcәk vә qüdrәtli ordumuz qarşısında tab gәtirmәyәrәk tezliklә müqәddәs torpaqlarımızı tәrk edәcәkdir.

Ölkәnin uğurlu inkişafı, ilk növbәdә, xalqın iqtidara inam vә hörmәtindәn, ona güvәnmәsindәn vә onu daim dәstәklәmәsindәn irәli gәlir. Bu baxımdan Azәrbaycanın dövlәt başçısına yalnız qibtә edilә bilәr. Azәrbaycan Prezidentinin 2019-cu il oktyabrın 28-dә Ağdaş rayonundakı görüşündә qeyd etdiyi kimi: **"Xalqın hökumәtә inamına görә indi biz birinci onluqdayıq. Bu, nәyi göstәrir? Bunu biz demirik, bunu geniş tәhlil aparan dünyanın әn mötәbәr qurumları deyir vә bu da hәqiqәtdir. Bizim gücümüzün dә mәnbәyi budur. Çünki xalq-iqtidar birliyi bizim inkişafımızı şәrtlәndirir vә bu dәstәk bizә güc verir ki, biz öz sözümüzü deyәk, öz mövqelәrimizi müdafiә edәk".**

Bu birliyin, bu dәrin hörmәtin kökündә ölkәdә aparılan böyük quruculuq işlәrinin, ilk növbәdә, ardıcıl davam etdirilәn sosial siyasәtin dayandığı hamıya aydındır. Sosial problemlәrin uğurla hәlli Azәrbaycan xalqının gündәlik hәyatında vә güzәranında öz әksini tapır vә onun dövlәtә inamını daha da yüksәldir. Prezident İlham Әliyev bunu öz çıxışlarında daim vurğulayaraq 2019-cu il martın 7-dә Ağsu rayonundakı çıxışında bildirir: **"Prezident kimi hәmişә çalışmışam ki, Azәrbaycan xalqına lәyaqәtlә xidmәt edim. Vәtәndaşları narahat edәn problemlәrin hәlli üçün bütün lazımi addımlar atılacaq".**

Azәrbaycanın bugünkü nailiyyәtlәrinin qazanılmasında ölkәdә yeni tәsis olunan vә artıq özünü ölkә hәyatının mühüm qollarından biri kimi tәsdiq etmiş vitse-prezidentlik institutu da mühüm rol oynayır. **Azәrbaycan xalqının xüsusi hörmәtini vә etimadını qazanmış Mehriban xanım Әliyevanın fәaliyyәti nәticәsindә bunun çox uğurlu bir yenilik olduğu öz tәsdiqini tapmışdır. Ölkәnin Birinci vitse-prezidenti artıq bir çox mühüm yeniliklәrin tәşәbbüskarına çevrilmişdir. Mehriban xanım Әliyevanın gördüyü işlәr son dәrәcә әhatәli vә vacibdir, ölkәmizin iqtisadi inkişafına, bir çox vacib sosial problemlәrin hәllinә, xarici ölkәlәrdә hәyata keçirilәn humanitar layihәlәr vasitәsilә mövqelәrimizin güclәndirilmәsinә, bütövlükdә ümumi işimizә verilәn böyük töhfәdir. Tәsadüfi deyildir ki, Azәrbaycan vәtәndaşları bir çox problemlәrinin hәlli üçün ona müraciәt edir vә haqlı tәlәblәrinin әksәriyyәtinә müsbәt cavab ala bilir, zәruri yardımlar әldә edirlәr.**

Respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Әliyevanın Azәrbaycanın beynәlxalq әlaqәlәrinin möhkәmlәndirilmәsindә, onun dünyada siyasi nüfuzunun güclәndirilmәsindә dә böyük xidmәtlәri danılmazdır. Nәinki Azәrbaycanda, elәcә dә onun hüdudlarından kәnarda, özünü qәtiyyәtli, güclü ictimai-siyasi vә dövlәt xadimi, güclü şәxsiyyәt, әn işgüzar birinci xanım kimi tanıtmış bu yorulmaz insan tükәnmәz enerji ilә çalışaraq mühüm dövlәt işlәrini vәtәndaş, ailә qayğıları ilә uzlaşdıra bilmiş, elm vә sәnәt adamının da, din xadiminin dә, әsgәr vә zabitin dә, sıravi insanın da ümid vә pәnah ünvanına çevrilmişdir. Onun ötәn il etdiyi 8 xarici sәfәri, keçirdiyi 30-dan çox görüşü, ölkәdә 12 mәrkәzin açılışında iştirakı vә gördüyü misilsiz işlәr müqabilindә aldığı mükafatlar buna sübutdur. 2019-cu ilin avqustunda Mehriban xanım Әliyevanın Rusiya Federasiyasına rәsmi sәfәri tәkcә onun üçün deyil, bütün xalqımız üçün әlamәtdar hadisә oldu. Hәmin sәfәr zamanı onun Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tәrәfindәn "Dostluq" ordeni ilә tәltif edilmәsi, iyul ayında Bakıda keçirilәn UNESCO-nun Ümumdünya İrs Komitәsinin 43-cü sessiyasında BMT-nin Baş katibinin müavini Liu Cenmin tәrәfindәn BMT-nin rәqәmsal idarәetmәnin inkişafı sahәsindә xüsusi mükafatının tәqdim olunması, daha sonra Azәrbaycan Bәstәkarlar İttifaqının tәsis etdiyi "Üzeyir Hacıbәyli" fәxri medalı ilә tәltif edilmәsi onun әmәyinә verilәn yüksәk qiymәtdir. **Ancaq Mehriban xanım Әliyevanın әn böyük mükafatı xalqımızın ona bәslәdiyi sonsuz inam vә tükәnmәz mәhәbbәtdir.**

Azәrbaycanın beynәlxalq mövqelәrinin möhkәmlәnmәsindә, mәdәniyyәt vә incәsәnәtinin dünyaya tanıdılmasında, ölkәmizdә keçirilәn böyük humanitar vә idman tәdbirlәrinin tәşkilindә mühüm rol oynayan Birinci vitse-prezident Mehriban xanım Әliyeva vәtәndaşların problemlәrinin hәllindә, onların müraciәtlәrinә daha diqqәtlә baxılmasında var qüvvәsi ilә çalışır. Mәhz onun tәşәbbüsü, habelә Heydәr Әliyev Fondunun birinci vitse-prezidenti Leyla xanım Әliyevanın yaxından kömәyi vә iştirakı ilә respublikada böyük humanitar tәdbirlәr keçirilir, ehtiyacı olan insanlara dәstәk vә yardımlar göstәrilir, insanların öz qabiliyyәtini vә işgüzar potensialını üzә çıxarması üçün bir-birindәn uğurlu layihәlәr reallaşdırılır. Belә tәdbirlәrin tәkcә respublika daxilindә deyil, ölkәmizin hüdudlarından kәnarda da keçirilmәsi, Xocalı soyqırımı, 20 Yanvar faciәsi kimi tarixi hadisәlәr barәdә dünya ictimaiyyәtinә obyektiv mәlumat verilmәsi daim müsbәt qiymәtlәndirilir. Xüsusilә mәcburi köçkünlәrin, şәhid ailәlәrinin, Qarabağ müharibәsi iştirakçılarının vә bu qәbildәn olan digәr insanların hәyat şәraitinin yaxşılaşdırılması, onlara qayğının gündәn-günә artırılması xalqımız tәrәfindәn böyük minnәtdarlıqla qarşılanır.

2019-cu il Azәrbaycanın tәkcә iqtisadi sahәdә deyil, digәr sahәlәrdә dә böyük uğurları ilә yadda qalmışdır. Azәrbaycan Respublikası Prezidentinin il әrzindә açılışını etdiyi saysız-hesabsız istehsalat vә sosialyönümlü obyektlәr, elәcә dә yeni qlobal vә yerli infrastruktur layihәlәri üçün ayırdığı vәsaitlәr, tәsdiq etdiyi geniş proqramlar vә yol xәritәlәri Azәrbaycanın növbәti ildә dә qazanacağı böyük uğurların tәmәlini qoymuşdur.

Azәrbaycan Respublikasının Milli Mәclisinә bu il fevralın 9-da keçirilәn növbәdәnkәnar seçkilәr dә genişmiqyaslı islahatların tәrkib hissәsidir. Beynәlxalq müşahidәçilәr bu seçkilәrin dünya standartlarına uyğun, obyektiv, әdalәtli vә tam şәffaf şәraitdә keçirilmәsini yüksәk qiymәtlәndirmiş, bu seçkilәr әsl vәtәndaş fәallığı nümunәsinә, xalqın iradәsinin sәrbәst, azad ifadәsinә, bir sözlә, demokratiyanın tәntәnәsinә çevrilmişdir.

### *Görülәn işlәrin әzәmәtini әks etdirәn minnәtdarlıq mәktubları*

Ölkә vәtәndaşları hәr zaman olduğu kimi, 2019-cu ildә dә sosial problemlәrinin hәlli, hәyata keçirilәn abadlıq-quruculuq işlәri, ölkәmizin qazandığı nailiyyәtlәr vә uğurlarla әlaqәdar dövlәtimizin başçısına çoxsaylı minnәtdarlıq mәktubları göndәrmişlәr. Onlar öz problemlәrinin hәlli ilә yanaşı, respublikada aparılan әzәmәtli quruculuq işlәrindәn duyduqları böyük sevinc hissini ifadә etmәyi özlәrinә borc hesab edirlәr. Belә mәktublar, demәk olar ki, Azәrbaycanın bütün bölgәlәrini әhatә edir. Eyni zamanda, xarici ölkә vәtәndaşlarından, habelә xarici ölkәlәrdә yaşayan soydaşlarımızdan daxil olan minnәtdarlıq mәktubları da az deyildir.

Vәtәndaşlar dövlәtin hәyata keçirdiyi siyasәti, dövlәt başçısının xalqa olan diqqәt vә qayğısını tәqdir etdiklәri kimi, Prezident İlham Әliyev dә xalqın ümumi mәsәlәlәrә münasibәtini, dövlәtin öz xalqından güc aldığını vurğulayaraq deyir: **"Bütün bunlar әlbәttә ki, gördüyümüz işlәrә verilәn yüksәk qiymәtdir. Әn böyük qiymәt Azәrbaycan xalqı tәrәfindәn verilәn qiymәtdir. Bu yaxınlarda aparılan sorğuya әsasәn demәk olar ki, әhalinin mütlәq әksәriyyәti Azәrbaycan rәhbәrliyini, bizim apardığımız siyasәti birmәnalı şәkildә dәstәklәyir. Әlbәttә ki, bu dәstәk bizә güc verir, iradәmizi artırır vә biz islahatlara daha da böyük hәvәslә, daha da böyük imkanlarla meyil göstәririk, bu islahatları aparırıq".**

Yola saldığımız 2019-cu il ölkә tarixindә mühüm sosial islahatlar ili kimi yadda qaldığına vә bu islahatların tәsir dairәsi çox geniş olduğuna görә bununla bağlı il әrzindә xeyli minnәtdarlıq mәktubu daxil olmuşdur. Ümumiyyәtlә, ölkәmizin sürәtli inkişafı vә bunun fonunda xalqımızın güzәranının yaxşılaşması vәtәndaş mәktublarının mütlәq әksәriyyәtini sәciyyәlәndirәn әsas mövzulardandır. **Gәncәdәn** M.Orucov, K.Әhmәdov vә başqaları dövlәt başçısına müraciәtlәrindә yazırlar: "Sizin respublikamıza rәhbәrliyiniz dövründә ölkәmizin sosial-iqtisadi inkişafı üçün çox işlәr görülüb, uğurlu siyasәtiniz nәticәsindә Azәrbaycan iqtisadi cәhәtdәn qüdrәtli ölkәyә çevrilib, xalqımız isә daha firavan yaşayır. Bütün bunlar Sizin gәrgin әmәyinizin nәticәlәridir".

> *"2019-cu ildә Azәrbaycan xalqı tәhlükәsizlik şәraitindә yaşamış, qurmuş, yaratmışdır. Bizim beynәlxalq mövqelәrimiz daha da möhkәmlәnmişdir."*
>
> **İlham ӘLİYEV**
> **Azәrbaycan Respublikasının Prezidenti**

**Bakının Nәsimi** rayonundan S.Salahov, **Nizami** rayonundan R.Naibova, **Babәk** rayonundan M.Cәfәrov, **Şirvandan** E.Hüseynov, **Abşeronun** Masazır kәndindәn M.Hüseynov, **Astaranın** Vaqo kәndindәn Z.Abbasov, **Balakәnin** Qullar kәndindәn İ.Şıxmәmmәdov, **Bilәsuvarın** Aşağı Cürәli kәndindәn B.Әzizov, **Cәbrayıldan** mәcburi köçkün C.Mehralıyev, **Cәlilabadın** Qarakazımlı kәndindәn F.Ağayev, **Gәdәbәyin** Gәrgәr kәndindәn R.Abbasov, M.Nağıyev, **Göyçayın** Bığır kәndindәn N.Qәhrәmanova, **Qaxdan** N.Mәmmәdov, **Siyәzәndәn** A.Hüseynov, **Şabranın** Ağbaş kәndindәn İ.Şahpәlәngova, **Şәmkirin** Qapanlı kәndindәn M.Hәsәnova, **Tovuzdan** E.Qasımov vә digәr şәhәr vә rayonlardan olan vәtәndaşlar Azәrbaycanın son 26 ildә keçdiyi şanlı inkişaf yoluna nәzәr salır, ölkәmizin qazandığı böyük nailiyyәtlәri vurğulayır, bütün bunlara görә ümummilli liderimiz Heydәr Әliyevә Uca Allahdan rәhmәt dilәyir, onun ideyalarını cәsarәtlә hәyata keçirәn dövlәt başçısına dәrin minnәtdarlıqlarını ifadә edirlәr.

Vәtәndaşlar bu gün ölkәmizdә müşahidә olunan sürәtli sosial-iqtisadi inkişafın respublikada demoqrafik vәziyyәtә müsbәt tәsir göstәrdiyini qeyd edәrәk, ötәn il 10 milyonuncu Azәrbaycan sakininin dünyaya gәlmәsindәn yaranan sevinclәrini dә bölüşür, bununla fәxr etdiklәrini bildirirlәr.

**Suraxanının** Hövsan qәsәbәsindәn F.Hacıyev bu barәdә fikirlәrini belә ifadә edir: "Bir vәtәndaş olaraq, 10 milyonuncu Azәrbaycan sakininin dünyaya gәlmәsindәn qürur hissi keçirirәm. Sizin Mehriban xanımla birlikdә uşağın doğulduğu sәhiyyә ocağına getmәyiniz, onun valideynlәri ilә görüşüb sәmimi söhbәt etmәyiniz, dövlәt tәrәfindәn bu ailәyә mәnzil verilmәsi vә hesablarına vәsait köçürülmәsi Azәrbaycan vәtәndaşına olan yüksәk qayğının әyani sübutudur".

**Azәrbaycan vәtәndaşları ölkәmiz üçün taleyüklü mәsәlәlәrdә, xüsusilә Qarabağ mәsәlәsindә hәr zaman birlik, hәmrәylik nümayiş etdirir vә dövlәt başçısının hәr bir qәti addımını dәstәklәyirlәr.** Ötәn il oktyabrın 3-dә Rusiya Federasiyasının Soçi şәhәrindә keçirilәn "Valday" Beynәlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışı zamanı dövlәt başçısının Ermәnistan baş nazirinin **"Qarabağ Ermәnistanın bir hissәsidir vә nöqtә"** bәyanatının xülya olduğunu vurğulayaraq, **"Qarabağ tarixi әzәli Azәrbaycan torpağıdır. Belәliklә, Qarabağ Azәrbaycandır vә nida işarәsi"** demәsi hәm ölkә daxilindә, hәm dә beynәlxalq sәviyyәdә geniş rezonans doğurdu. Bakının **Binәqәdi, Qaradağ, Nәrimanov, Nizami** rayonlarından, **Naxçıvan Muxtar Respublikasından, Gәncә, Mingәçevir, Sumqayıt,** vә başqa şәhәrlәrdәn, **Abşeron, Ağdam, Balakәn, Cәlilabad, Daşkәsәn, Qobustan, Qubadlı, Qusar, Masallı, Salyan, Tәrtәr, Zәrdab** vә digәr rayonlardan bununla әlaqәdar gәlәn onlarla fәrdi vә kollektiv minnәtdarlıq mәktubunda Prezidentin bu cәsarәtli çıxışı ilә bağlı xoş sözlәr әksini tapmışdır.

**Xәtai** rayonundan A.Hacıyev yazır: "Valday" Beynәlxalq Diskussiya Klubunun sessiyasındakı çıxışınızı fәxrlә izlәdim. "Qarabağ Azәrbaycandır vә nida işarәsi" demәyiniz mәni hәm qürurlandırdı, hәm dә kövrәltdi. Mükәmmәl, olduqca qәtiyyәtli vә sәrrast cavabdır".

**Ordu quruculuğu sahәsindә görülәn işlәr dә vәtәndaşların hәr zaman xüsusi önәm verdiyi mәsәlәlәrdәn biridir.** Azәrbaycan Ordusunun maddi-texniki bazasının güclәndirilmәsi, keçirilәn xüsusi tәlimlәr hesabına zabit vә әsgәr heyәtinin peşәkarlıq sәviyyәsinin ildәn-ilә yaxşılaşdırılması müsbәt amil kimi dәyәrlәndirilir. Vәtәndaşları әn çox razı salan mәqamlardan biri dә hәrbi hissәlәrdә әsgәrlәr üçün yaradılan yüksәk şәraitdir. Әsgәr ataları – **Ordubaddan** S.Qasımovun vә **Şәkidәn** İ.Nәcәfovun mәktubları mәhz bununla bağlıdır. Onlar ordudakı mövcud şәraiti tәqdir etmәklә yanaşı, övladlarının Vәtәn üçün xidmәt etmәkdәn qürur hissi keçirdiklәrini, Ali Baş Komandanın tez-tez cәbhә bölgәsindә olmasının, әsgәrlәrlә görüşüb onların durumları ilә maraqlanmasının hamıda böyük ruh yüksәkliyi yaratdığını bildirirlәr.

**Milli-mәnәvi dәyәrlәrimizә, tarixi vә mәdәni irsimizә hörmәt vә ehtiramla yanaşılması, onların qorunub saxlanılması vә tәbliğ edilmәsi dövlәtimizin hәr zaman xüsusi diqqәtdә saxladığı mәsәlәlәrdir.** Yola saldığımız 2019-cu ilin ölkәmizdә "Nәsimi ili" elan edilmәsi bunu bir daha tәsdiq edir. **Masallının** Hişkәdәrә kәndindәn müәllim-filoloq M.Şahbazova bu barәdә yazır: "Azәrbaycanın dahi şairi İmadәddin Nәsiminin şәrәfinә vә әziz xatirәsinә ehtiram әlamәti olaraq 2019-cu ili "Nәsimi ili" elan etmәyiniz tәqdirәlayiq bir addımdır. Bu, Sizin Azәrbaycan mәdәniyyәtinә vә әdәbiyyatına verdiyiniz böyük dәyәrin daha bir nümunәsidir".

Mart ayının 1-dә dövlәt başçısının mәdәniyyәt vә incәsәnәt xadimlәrinin bir qrupu ilә görüşü, hәmin görüşdә sәslәndirdiyi fikirlәr, bunun ardınca martın 4-dә vә aprelin 17-dә Azәrbaycan teatrlarının inkişafı ilә bağlı әlavә tәdbirlәr haqqında sәrәncamlar imzalaması, hәmin tәdbirdә böyük mesenat H.Z.Tağıyevin Bakı şәhәrindә heykәlinin qoyulması tәklifinә müsbәt yanaşması hәm yaradıcı insanlar, hәm dә sıravi vәtәndaşlar tәrәfindәn çox bәyәnildi. **İsmayıllıdan** Ş.Rәsulov vә başqaları bununla әlaqәdar fikirlәrini belә ifadә edirlәr: "Mәdәniyyәt vә incәsәnәt xadimlәri ilә görüşünüzә baxan zaman Sizin bәnzәrsiz Prezident olduğunuzu bir daha dәrindәn dәrk etdik. Övladlarımızın, nәvәlәrimizin sabahı, gәlәcәyi üçün arxayın olub, Sizә, dövlәtimizә minnәtdarlığımızı bildirәrәk, Allaha şükür edir, ömrümüzü firavanlıqla davam etdiririk".

**Ötәn il iyulun 7-dә Bakıda UNESCO-nun Ümumdünya İrs Komitәsinin 43-cü sessiyasında Xan Sarayı ilә birgә Şәkinin tarixi mәrkәzinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmәsi dә ilin yaddaqalan uğurlarından biri oldu.** Bununla bağlı dövlәtimizin başçısına onlarla minnәtdarlıq mәktubu ünvanlanmışdır. **Şәkidәn** 2-ci qrup Qarabağ müharibәsi әlili M.Әzizov yazır: "Bu tarixi hadisәdәn qürur hissi keçirirәm. Ölkәmizin daha da inkişafı, xalqımızın firavan yaşayışı, mәdәniyyәt nümunәlәrimizin bütün dünyaya nümayiş olunması istiqamәtindәki sәylәrinizi alqışlayır, Sizә cansağlığı, uğurlar, yeni-yeni nailiyyәtlәr arzulayıram".

Qeyd edәk ki, bundan әvvәl İçәrişәhәr, Qız qalası vә Şirvanşahlar Saray Kompleksi, Qobustan Qaya Sәnәti Mәdәni Landşaftı UNESCO-nun Ümumdünya İrs Siyahısına, hәmçinin xalqımızın qeyri-maddi mәdәni irsinin 13 nümunәsi hәmin tәşkilatın Qeyri-Maddi Mәdәni İrs Siyahısına daxil edilmşdir.

**Bunlarla yanaşı, Bakı Dövlәt Universitetinin 100 illik, Sumqayıt şәhәrinin 70 illik yubileylәri ilә әlaqәdar** daxil olmuş çoxsaylı minnәtdarlıq mәktublarında hәm ayrı-ayrı kollektivlәr, hәm dә sadә vәtәndaşlar Prezident İlham Әliyev tәrәfindәn göstәrilәn qayğıya, bu әlamәtdar yubileylәrdә onun şәxsәn iştirakına, dәrin mәzmunlu nitqlәrinә, etdiyi tәltiflәrә görә razılıq bildirirlәr.

**Hәr kәsә mәlum olduğu kimi, Azәrbaycan dövlәti sosialyönümlü siyasәt yürüdür, insanların sosial problemlәrinin hәllini diqqәtdә saxlayır vә bu istiqamәtdә mühüm layihәlәr hәyata keçirir.** Ölkәmizdә işsizlik faizinin minimuma endirilmәsi üçün müvafiq tәdbirlәr görülmәkdәdir. Nazirlәr Kabinetinin ilin birinci rübünün yekunlarına vә qarşıda duran vәzifәlәrә hәsr olunan iclasında dövlәt başçısının dediyi kimi, **"İş yerlәrinin yaradılması üçün, әlbәttә ki, vacib amillәrdәn, vasitәlәrdәn biri özünümәşğulluq proqramıdır".**

Ötәn il özünümәşğulluq proqramına 10 min 352 nәfәr cәlb olunmuşdur ki, bu da 2018-ci ildәkindәn 72 faiz çoxdur. Proqrama cәlb olunan vәtәndaşlarımızdan 6 min 395 nәfәri, yәni 62 faizi xüsusi kateqoriyadan olan şәxslәr, o cümlәdәn 2 min 373-ü әlilliyi olan şәxslәr, 257-si şәhid ailәsi üzvlәri, 1860-ı mәcburi köçkünlәr, 479-u ünvanlı sosial yardım alanlar, 1426-sı gәnclәrdir.

Bakının **Nizami** rayonundan R.Әhmәdov, **Gәncәdәn** Ş.Abbasova, **Astaranın** Әrçivan qәsәbәsindәn M.Sәmәdov, **Cәbrayıldan** V.Turabov, **Cәlilabaddan** B.Cabbarlı vә başqaları (cәmi 117 nәfәr), **Goranboydan** İ.Nәcәfov, **Hacıqabuldan** N.Mәmmәdov, **İmişlinin** Cәfәrli kәndindәn N.Әliyev vә başqaları (cәmi 92 nәfәr), **Qazaxdan** N.Mahmudov, **Sabirabadın** Әsgәrbәyli kәndindәn İ.Әmiraslanov, Cavad kәndindәn L.Fәrәcova, Balvar kәndindәn M.Bağırov, Әlicanlı kәndindәn R.İsmayılov, Әhmәdabad kәndindәn N.Cavaxov, **Tәrtәrin** Qaynaq kәndindәn H.Mahmudov vә digәr şәhәr vә rayonlardan aztәminatlı ailәlәrin rifahının yaxşılaşmasına müsbәt tәsir göstәrәn özünümәşğullluq proqramının hәyata keçirilmәsinә vә onlara bu proqram çәrçivәsindә lazımi şәraitin yaradılmasına görә tәşәkkür edirlәr.

**Bu mәktubların bir çoxunda vәtәndaşlar aztәminatlı ailәlәrin ünvanlı sosial yardım proqramından asılılığının aradan qaldırılması, onların kiçik sahibkarlığa keçidinin tәmin olunması mәqsәdi daşıyan özünümәşğulluq proqramını bәyәndiklәrini vә dәstәklәdiklәrini bildirir, yaradılmış imkandan sәmәrәli istifadә edәrәk tәsәrrüfatlarını ildәn-ilә genişlәndirmәyә çalışdıqlarını vә buna nail olacaqlarına inandıqlarını yazırlar.**



*(ardı 5-ci sәhifәdә)*

# Azərbaycan Prezidentinin dərin islahatları vətəndaş müraciətlərində qaldırılan məsələlərin həllinə böyük inam yaradır

*(əvvəli 4-cü səhifədə)*

**Biləsuvardan** Y.Fətəliyev, T.Şirinov və başqaları (cəmi 73 nəfər) isə fikirlərini belə ifadə edirlər: "Özünüməşğulluq proqramının çox böyük əhəmiyyəti var. Sizin tapşırığınız əsasında icra olunan proqrama biz də cəlb edilmişik. Çoxdan idi ki, öz təsərrüfatımızı yaratmaq istəyirdik, lakin maddi imkanımız yetərli olmadığına görə bunu edə bilmirdik. Özünüməşğulluq proqramı bu sahədə bizə çox böyük kömək oldu. Proqrama uyğun olaraq bizə mal və materiallar verildi, indi hər birimiz öz ailə təsərrüfatımızı qurmuşuq".

Sosial məsələlərin həllində, o cümlədən əhalinin məşğulluğunun təmin edilməsində mühüm töhfələrdən biri də Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin yaradılmasıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il mayın 9-da Bakının Yasamal rayonunda DOST Agentliyinin və ilk DOST mərkəzinin inzibati binasının açılış mərasimində demişdir: **"Sosial sahə bizim üçün prioritet sahədir. Bu sahəyə çox böyük diqqət göstərilir və bu istiqamətdə aparılan islahatlar artıq özünü göstərir. DOST Agentliyinin yaradılması bu istiqamətdə atılmış çox önəmli islahatdır. Növbəti illərdə bu agentliyin fəaliyyətinin genişləndirilməsi, əminəm ki, vətəndaşlar tərəfindən də çox yüksək qiymətləndiriləcək".**

**Lerikdən** G.Quliyevanın məktubunu buna misal göstərmək olar. O, yazır: "Dolanışığımızı daha da yaxşılaşdırmaq üçün müraciət etmişdim. Müraciətimə baxıldı və məni "DOST İş Mərkəzi"ndə işə götürdülər. Ailəmizin maddi vəziyyəti xeyli yaxşılaşdı".



*"Ölkəmizdə milli həmrəylik, vətəndaş həmrəyliyi var... Bizim gücümüz birliyimizdədir".*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Artıq ödənişli əsaslarla ali təhsil müəssisələrinə daxil olan əlil tələbələr təhsil haqqı problemi yaşamır və öz dərslərinə daha çox diqqət ayırırlar".

**Ölkəmizin sürətli iqtisadi inkişafı sayəsində həyata keçirilən uğurlu sosial siyasət əhalinin bütün kateqoriyalarını əhatə edir.** Onlar bu siyasətin nəticəsini öz gündəlik həyatlarında görür, hiss edir və bununla əlaqədar təşəkkür etməyi də yaddan çıxarmırlar. Şəhid ailələrinin üzvləri və

*"Vətəndaşların rifah halının yaxşılaşdırılması bizim üçün prioritet məsələ olaraq qalır".*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Sosial məsələlər barədə digər müraciətlərdə Pirallahıdan** F.Məmmədov, **Lənkəranın** Liman şəhərindən H.Əzizov, M.Qasımova, N.Hüseynova, **Hacıqabulun** Atbulaq kəndindən R.Rəhimov da işlə təmin olunmalarına görə təşəkkür edir, **Göygöldən** S.Rzayeva, T.Əhmədova ünvanlı sosial yardım verilməsinə, **Sabirabaddan** S.Abdullayev tənha ahıllara sosial xidmət göstərilməsinə, **Samuxdan** S.İsayev və başqaları xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün günərzi qayğı mərkəzinin yaradılmasına görə razılıq bildirirlər.

Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2019-cu il 25 fevral tarixli sərəncamı ilə sosial müavinətlərin artırılmasını, bəzi əhali qrupları üzrə, o cümlədən müharibə veteranları üçün Prezident təqaüdünün təsis edilməsini, bütün qruplardan olan müharibə əlillərinə, habelə I qrup əlilliyə görə sosial müavinət alanlara, Böyük Vətən müharibəsi iştirakçılarına və bir sıra digər şəxslərə verilən Prezident təqaüdünün məbləğinin artırılmasını vətəndaşlar çox böyük razılıqla qarşıladılar.

Bu məsələlərlə əlaqədar minnətdarlıq məktublarının coğrafiyası çox genişdir. **Bakı, Culfa, Sədərək, Şahbuz, Lənkəran, Sumqayıt, Şirvan, Yevlax, Ağdaş, Ağsu, Cəbrayıl, Cəlilabad, Goranboy, Göygöl, Hacıqabul, Xaçmaz, Xocavənd, İmişli, İsmayıllı, Qazax, Quba, Qusar, Lerik, Saatlı, Şamaxı, Ucar, Yardımlı, Zərdab,** habelə digər şəhər və rayonlardan yüzlərlə belə məktub daxil olmuşdur.

**Gədəbəydən** I qrup əlil F.Alıyev dövlətimizin başçısının "I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında" 2019-cu il 3 may tarixli Sərəncamı əsasında təhsil haqqı ödənişindən azad olunduğuna görə yazır: "Bu, çox humanist və təqdirəlayiq bir addımdır.

Qarabağ müharibəsi əlilləri – **Nəsimidən** Z.Umarov, **Pirallahıdan** T.Abbasov, **Mingəçevirdən** A.Xəlilova, Q.Xuduyeva və başqaları bu kateqoriyadan olan vətəndaşlara verilən Prezident təqaüdünün artırılmasına, **Xəzərdən** B.Hüseynova, **Yasamaldan** R.Ərəbxanova, **Abşeronun** Məhəmmədi kəndindən Y.Nadirli, Saray qəsəbəsindən İ.Quliyev, **Ağcabədinin** Yuxarı Qiyaməddinli kəndindən T.Qasımov, D.Əliyeva, Hacıbədəlli kəndindən N.Əsgərov mənzillə və ya fərdi yaşayış evi ilə təmin olunduqlarına görə təşəkkür etmişlər.

**Qaradağın** Lökbatan qəsəbəsindən Vaqif və Şəfiqə Süleymanovlar, **Nizami** rayonundan (Bakı) G.Ömərova, **Şəkinin** Kiş kəndindən E.Aslanova, **Ağdamdan** Ə.Səfərova və başqaları, **Göygöldən** H.Verdiyeva və başqaları, **Masallının** Qarğalıq kəndindən H.Vəliyev, **Sabirabadın** Narlıq kəndindən H.Əliyev, digər şəhər və rayonlardan başqaları şəhid vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmənin verilməsinə görə Azərbaycan Prezidentinə minnətdarlıq məktubu ünvanlamışlar.

**Binəqədidən** Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin həyat yoldaşı Qalina Hacıyeva isə bunları yazır: "Mən özüm əslən Belarusdanam. Artıq 30 ildən çoxdur ki, ailəmlə birlikdə sevimli Azərbaycanda yaşayıram. Bu müddət ərzində bizə göstərdiyiniz köməyə və dəstəyə görə bütün şəhid ailələri və Azərbaycanın Milli qəhrəmanlarının ailələri adından Sizə təşəkkürümü bildirmək istəyirəm. Sizə və Mehriban xanıma "Çox sağ olun!" deyirəm ki, Vətənimizin rifahı naminə yorulmadan çalışırsınız. Sizin sayənizdə ölkəmiz gözəl və firavan diyara çevrilib".

Bundan başqa, **Qaradağdan** Ə.Zeynalov, **Sabunçunun** Ramana qəsəbəsindən V.Behbudov, **Səbailin** Badamdar qəsəbəsindən B.Ağayev, **Naftalandan** N.Məmmədov, **Sumqayıtdan** A.Eyvazov, **Yevlaxın** Qoyunbinəsi kəndindən S.Əskərova, **Abşeronun** Xırdalan şəhərindən F.İsayev, **Bərdənin** Böyük Göyüşlü kəndindən Q.Kazımov, **Daşkəsəndən** S.Abdullayeva, **Füzulinin** Horadiz şəhərindən A.Abbasov, **Neftçaladan** G.Cəfərova və başqaları şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə göstərilən dövlət qayğısından razılıqlarını ifadə etmişlər.

Məcburi köçkünlər – **Ağdamdan** N.Abbasov, N.Həsənov, **Cəbrayıldan** Ş.Muradxanlı, **Qubadlıdan** T.Əliyev və E.Baxşəliyev, **Şuşadan** K.Məmmədli, S.Muradov, digər şəhər və rayonlardan başqaları yeni salınmış yaşayış komplekslərində mənzillə təmin olunmaları ilə əlaqədar sevinc hisslərini bölüşürlər.

**Füzulidən** V.Ədilzadə, **Xocavənddən** T.Əliyev, **Kəlbəcərin** Ağcakənd kəndindən İ.Nuriyev, **Zəngilandan** K.Mahmudov, digər şəhər və rayonlardan başqaları məcburi köçkünlərə göstərilən dövlət qayğısından, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılmasından razılıqlarını bildirirlər. Ağsuda məskunlaşmış **Laçından** olan məcburi köçkün N.Rüstəmovun fikirləri maraq doğurur: "Siz məcburi köçkünlərin rahat yaşaması, övladlarımızın təhsil alması, ümumilikdə isə Azərbaycan xalqının firavanlığı üçün yorulmadan çalışır, böyük əmək sərf edirsiniz. Sizin sayənizdə on minlərlə məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır".

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi məqsədilə Tarif Şurasının qərarı ilə ötən il mayın 1-dən təbii qazın aşağı tariflə illik istehlak həcminin 1700 kubmetrdən 2200 kubmetrədək artırılması vətəndaşlar tərəfindən ölkəmizdə həyata keçirilən sistemli sosial siyasətin davamı kimi qiymətləndirildi. **Biləsuvardan** E.Əliyevin məktubunda deyildiyi kimi, bu, eyni zamanda, vətəndaşların ailə büdcəsinə dövlətimizin başçısı tərəfindən göstərilən dəstəkdir. **Xətai** rayonundan A.Hüseynovun, **Astaradan** E.Həbibovun, **İmişlidən** Q.Bayramovun, digər şəhər və rayonlardan başqalarının məktubları da bu qəbildəndir.

**Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı tədbirlər görülməsi də vətəndaşlara göstərilən qayğıdan irəli gəlir və əhalinin güzəranının yaxşılaşmasına xidmət edir.** Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev demişdir: **"Digər önəmli məsələ problemli kreditlərlə bağlı idi. ...Bir neçə ölkədə bu məsələ ilə bağlı müəyyən addımlar atılmışdır, müqayisə aparmaq istəmirəm. Ancaq deyə bilərəm ki, bu məsələ ən genişmiqyaslı və vətəndaşları təmin edəcək şəkildə, ədalətli şəkildə Azərbaycanda həll olunub. Nə üçün? Ona görə ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz Azərbaycan vətəndaşının rifahı üçün əlimizdən gələni edirik. Beləliklə, 100 minlərlə insanı narahat edən bu məsələ də uğurla həll olundu".**

Devalvasiya nəticəsində fiziki şəxslərin xarici valyutada olan kreditləri üzrə üzləşdikləri maliyyə itkisini qarşılamaq, o cümlədən problemli kreditlər məsələsinin həllinə dövlət dəstəyini təmin etmək məqsədilə Azərbaycan Prezidentinin ötən il fevralın 28-də imzaladığı "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı bu baxımdan olduqca böyük əhəmiyyət kəsb etdi. Ümumilikdə, 602 min 347 fiziki şəxsi əhatə edən bu fərman çərçivəsində həmin şəxslərə 657 milyon manat məbləğində kompensasiya nəzərdə tutulmuş, artıq 2019-cu ildə 600 min nəfər üzrə 645 milyon manat kompensasiya ödənilmişdir. Beləliklə, fərmanın icra faizi əhatə dairəsi üzrə 99,6 faizə çatmışdır.

**Xəzərin** Binə qəsəbəsindən F.İsmayılov, **Qaradağdan** G.İsgəndərova, **Nizami** rayonundan (Bakı) Q.Salahov, **Suraxanının** Zığ qəsəbəsindən O.Süleymanova, **Yasamaldan** N.Musayev, **Naxçıvan** şəhərindən M.Məmmədov, **Şərur** rayonunun Şəhriyar kəndindən İ.İbrahimov, **Lənkəranın** Şağlakücə kəndindən N.Novruzov, **Mingəçevirdən** S.Rəşidova, **Sumqayıtdan** E.Vəliyev, **Şəkidən** T.Abdullayev, **Yevlaxın** Ərəş kəndindən G.Mürşüdova, **Ağdamın** Qasımlı kəndindən M.İsgəndərova, **Ağstafanın** Poylu kəndindən S.Əhmədova, **Bərdədən** A.Şükürzadə, **Xocavənddən** Ş.Dadaşova, **İsmayıllıdan** V.Ağayev, **Qazaxın** Orta Salahlı kəndindən M.Alnazarova, **Qəbələnin** Kötüklü kəndindən N.Nəbiyev, **Saatlıdan** S.Əzizov, **Şəmkirdən** V.Cəfərova, **Tovuzun** Aşağı Öysüzlü kəndindən Ə.Əhmədova, **Zaqatalanın** Faldarlı kəndindən A.Abdullayev, digər şəhər və rayonlardan olan vətəndaşlar ödəməkdə çətinlik çəkdikləri kreditlərə görə onlara müəyyən məbləğdə kompensasiya ödənilməsinə və ya borclarının silinməsinə görə razılıq etmişlər.

**Şirvandan** A.Allahverdiyevin məktubunda isə bu sözlər yer alır: "Siz bizi böyük bir çətinlikdən qurtardınız. Problemli kreditlərin həlli istiqamətində atdığınız addım Sizin xalqın yanında olduğunuzu bir daha göstərdi".

**Dövlətimizin başçısının çətinliklə üzləşən vətəndaşlara dərhal kömək əlini uzatdığını ölkəmizdə baş verən təbii fəlakətlər və texnogen hadisələr dövründə hər zaman müşahidə etmişik.** 2019-cu ilin fevral ayında **Ağsu, İsmayıllı, Şamaxı** rayonlarında baş vermiş zəlzələ ilə əlaqədar görülən işlər barədə həmin rayonlardan, habelə **Nərimanov, Nəsimi, Astara, Bərdə, Goranboy, Masallı, Zaqatala,** digər şəhər və rayonlardan onlarla minnətdarlıq məktubu daxil olmuşdur. Dövlət başçısının zəlzələ baş verən bölgəyə getməsi, insanların üzləşdiyi problemlə yerində tanış olması və onların aradan qaldırılması barədə göstərişlər verməsi və müvafiq sərəncamlar imzalaması həmin rayonların sakinləri ilə yanaşı digər bölgələrdən olan insanlar tərəfindən də yüksək qiymətləndirilmişdir.

**Qubadan** T.Əmiraslanov yazır: "Bir neçə gün əvvəl zəlzələdən zərər çəkmiş insanlarla bərabər oldunuz, onların dərdini dinlədiniz. Bu mənzərə Sizin hər bir vətəndaşın yanında olduğunuzun əyani göstəricisidir".

Qeyd edək ki, zəlzələ nəticəsində ziyan çəkmiş insanlardan yeni evlə təmin olunmaları və evlərinin təmir-bərpa edilməsi barədə də minnətdarlıq məktubları daxil olmaqdadır.

**Ağdamın** Mirəşelli kəndindən M.Quliyev, Əfətli kəndindən M.Abdullayev, Kolqışlaq kəndindən R.Quluyev, Sarıcalı kəndindən E.Nəsirov isə düşmən atəşindən zərər görmüş evlərinin bərpa edilərək onlara təhvil verilməsindən sevindiklərini, bu addımın cəbhə bölgəsində yaşayan insanlara böyük mənəvi güc verdiyini vurğulayırlar.

Bakının Nizami rayonunda yerləşən "Diqlas" ticarət mərkəzində baş vermiş yanğın hadisəsi zamanı ziyan çəkmiş sahibkarlara dövlət tərəfindən maddi yardım göstərilməsi haqqında Azərbaycan Prezidentinin 2019-cu il 29 mart tarixli, həmçinin Gəncə şəhərində dördmərtəbəli yaşayış binasında baş vermiş partlayış nəticəsində qəzalı vəziyyətə düşmüş binanın sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə Prezidentin ehtiyat fondundan vəsait ayrılması barədə 2019-cu il 6 fevral tarixli sərəncamları da vətəndaşlarda böyük razılıq hissi doğurmuşdur. Bu hadisələrlə əlaqədar **Xətai, Nərimanov, Yasamal, Gəncə, Mingəçevir, Ağdam, Biləsuvar,** digər şəhər və rayonlardan daxil olmuş məktublarda bir fikir xüsusi vurğulanır: "Çox şadıq ki, dövlətimiz hər zaman olduğu kimi yenə çətinliklə üzləşmiş insanları darda qoymadı".

**Azərbaycan Prezidentinin humanizminin təcəssümü olan 2019-cu il 16 mart tarixli sərəncamı ilə ötən il ümumilikdə 431 nəfər əfv olunmuş,** o cümlədən azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş 399 nəfər cəzanın çəkilməmiş hissəsindən, 12 nəfər cərimə cəzasından, 11 nəfər şərti cəzadan azad edilmiş, 3 nəfərin cəza müddəti azaldılmış, qalan 6 nəfər barədə müvafiq humanist qərarlar verilmişdir.

Əfv olunaraq azadlığa çıxan **Yasamal** rayon sakini M.Səlimov da dövlətimizin başçısının insan amilinə verdiyi dəyəri xüsusi vurğulayaraq yazır: "Novruz bayramı ərəfəsində mərhəmət və humanizm göstərərək yüzlərlə şəxs kimi mənə də ailəmə qovuşmağı hədiyyə etdiyinizə görə Sizə dərin təşəkkürümü, hörmət və ehtiramımı bildirirəm".

Bu mövzuda daxil olmuş digər müraciətlərdə **Sabunçunun** Maştağa qəsəbəsindən T.Aslanov və **Gəncədən** C.Səfərova övladlarının, **Lənkəranın** Liman şəhərindən R.Tahirli və **Bərdənin** Otuzikilər kəndindən S.Muradov özlərinin, **Masallının** Ərkivan qəsəbəsindən G.Məmmədova və başqaları ailə üzvlərinin əfv olunmasına görə Prezidentə sonsuz təşəkkür etmişlər.

**Mingəçevirdən** F.Hüseynov, **Biləsuvardan** M.Əliyev, **Qusardan** İ.Xankişiyev isə bu məsələyə öz vətəndaşlıq mövqelərini bildirərək qeyd etmişlər: "Əfv etmək böyüklüyün və humanizmin nümunəsidir. Qədirbilən xalqımız bunu yüksək qiymətləndirir. Biz də bunu alqışlayır və Sizə "Çox sağ olun!" deyirik".

Artıq tarixin yaddaşına qovuşmuş 2019-cu il **gənclər siyasəti sahəsində** də bir sıra mühüm yeniliklərlə əlamətdar olmuşdur. **Xəzərin** Mərdəkan qəsəbəsindən Ş.Sərdarlı, **Gəncədən** Ə.Əhmədov, A.Novruzova, **Mingəçevirdən** G.İsmayılova, **Sumqayıtdan** Z.Süleymanov, **Biləsuvardan** L.Əbilzadə, **Qubadan** Ə.Qazıyev ali məktəb tələbələri üçün Prezident təqaüdlərinin artırılmasına görə minnətdarlıq bildirirlər.

**Gəncədən** B.Cəfərli Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun tikintisi və avadanlıqlarla təchizatı, **Tərtərdən** Ş.Quliyev və başqaları rayonda Olimpiya İdman Kompleksinin tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında ötən ilin fevral ayında imzalanmış sərəncamları Azərbaycan Gəncləri Günü münasibətilə onlara bəxş olunmuş ən böyük hədiyyə hesab edirlər.

**Yasamaldan** A.Əsgərli, **Qaxdan** D.Əhmədova ölkənin ictimai-siyasi və mədəni həyatında fəallığı ilə seçilən gənclərin təltif edilməsinə görə təşəkkürlərini ifadə etmişlər.

**Xətai** rayonundan Əməkdar idman ustası R.İbrahimov, **Pirallahıdan** M.Vəliyev, **Suraxanıdan** O.Qasımov, **Ağsudan** G.Ələkbərli, **Goranboyun** Xoylu kəndindən R.Əlizadə, **Qazaxdan** Ü.Zeynalov da gənclərə və onların sağlamlıqlarına göstərilən dövlət dəstəyindən öz razılıqlarını bildirmiş, gənclərin də bu qayğıya öz əməli işləri ilə cavab verməyə çalışdıqlarını, Azərbaycan cəmiyyətində könüllülük prinsipinin geniş təşəkkül tapdığını xüsusi qeyd etmişlər.

**Salyandan** A.Yarıyeva "ASAN Könüllüləri" təşkilatının müsbət nəticələrini vurğulayaraq yazır: "Dünyada Azərbaycan kimi ikinci bir dövlət göstərmək çətindir ki, müharibə şəraitində ola-ola gənclərin problemləri ilə bu qədər yaxından məşğul olsun. Mən "ASAN Könüllüləri" təşkilatının imkanlarından istifadə etməklə könüllülük təcrübəsindən faydalandım. Bu da mənim bir gənc olaraq işlə təmin olunmağıma böyük yol açdı".

**Dövlət başçısının tapşırığı əsasında respublikamızın orta məktəb şagirdləri üçün "Ölkəmizi tanıyaq!" devizi ilə 2014-cü ildən davam etdirilən maarifləndirici tur-aksiya da mühüm təşəbbüslərdən biridir.** Gələcək nəslin daha intellektual və məlumatlı olmasına xidmət edən bu layihənin uğurla həyata keçirilməsi böyük razılıqla qarşılanır. **Binəqədi, Nərimanov, Nəsimi, Suraxanı, Naxçıvan, Kəngərli, Şərur, Ağsu, Göygöl, Xocavənd, Kürdəmir, Qobustan, Qubadlı, Qusar, Saatlı, Sabirabad, Salyan, Tərtər, Ucar,** başqa şəhər və rayonlardan ötən il bu barədə onlarla təşəkkür dolu məktub daxil olmuşdur.

**İsmayıllının** Talıstan kəndindən A.Abbaszadə bu layihənin əhəmiyyətini vurğulayaraq yazır: "Ölkəmizin gözəl diyarlarını gəzmək, tarixi, mədəni irsi barədə geniş məlumat əldə etmək həm biz şagirdlərin mənəvi və intellektual aləmini zənginləşdirir, həm də bizi öz dərslərimizə daha da həvəsləndirir. Bu tur-aksiyada təhsildə fərqlənən şagirdlər iştirak etdiyindən məktəblilər dərslərinə daha məsuliyyətlə yanaşmağa, növbəti tədbirlərin iştirakçısı olmağa çalışırlar".

**Səhiyyə məsələlərinə dair** məktublarda **Şəkidən** Z.Hüseynov övladının, **Goranboyun** Zeyvə kəndindən H.Məhərrəmov nəvəsinin yerli tibb müəssisələrində uğurla əməliyyat edilməsinə, **İsmayıllının** Sulut kəndindən E.Nurməmmədov kənddə tibb məntəqəsinin açılmasına, **Qobustanın** Şıxzərli kəndindən Ş.Babaverdiyev müalicə olunmasına, **Neftçalanın** Xıllı qəsəbəsindən N.Məmmədov dövlət hesabına tibbi müayinədən keçirilməsinə görə minnətdarlıqlarını bildirmişlər.

**Şəhər və rayonların, kənd və qəsəbələrin simasını dəyişən, onlara daha yaraşıqlı görkəm bəxş edən və insanlarda xoş ovqat yaradan abadlıq-quruculuq işləri 2019-cu ildə də davam etdirilmişdir. Bütün respublikanı əhatə edən bu işlərin siyahısı çox genişdir. Son illərdə şəhər və rayonlarda çoxmənzilli yaşayış binalarının dam örtüklərinin təmiri, onların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülür. Təkcə 2019-cu ildə dövlət başçısının 7 sərəncamı ilə respublikanın 15-dən çox şəhər və rayonunda bu işlərin həyata keçirilməsi üçün ümumilikdə 82 milyon manatdan artıq vəsait ayrılmışdır.**

**Gəncədən** F.Əliyeva, A.Bayramova, **Lənkərandan** N.Əzizov, G.Əliyeva, **Mingəçevirdən** İ.İsmayılov, H.Məmmədova, **Daşkəsəndən** Z.Məmmədov, **Qazaxdan** İ.Allahverənli, digər şəhər və rayonlardan olan vətəndaşlar bu məsələlərə görə minnətdarlıq edirlər.

*(ardı 6-cı səhifədə)*

# Azərbaycan Prezidentinin dərin islahatları vətəndaş müraciətlərində qaldırılan məsələlərin həllinə böyük inam yaradır

*(əvvəli 5-ci səhifədə)*



**Quruculuq işləri içərisində təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi mühüm yer tutur. Suraxanının** Bülbülə qəsəbəsindən S.Cəbiyeva, **Ağdaşın** Pirkəkə kəndindən N.Əliyev, **Beyləqanın** Dünyamalılar kəndindən M.Xudaverdiyev, **Qazaxın** Daş Salahlı kəndindən T.Sultanova, **Qobustanın** Sündü kəndindən R.Xasıyev, **Lerikin** Siyov kəndindən S.Ağayev, **Neftçalanın** Xıllı qəsəbəsindən Q.Əhmədov, **Salyanın** Sarvan kəndindən R.İsmayılov, Kürsəngi kəndindən İ.Hüseynov və başqaları (cəmi 56 nəfər), **Tovuzun** Bozalqanlı kəndindən N.Quliyev, **Zərdabın** Hüseynxanlı kəndindən R.Quliyev yaşadıqları qəsəbə və kəndlərdə orta məktəblərin əsaslı təmir olunmasına və ya yeni məktəb binalarının tikintisinə, körpələr evi-uşaq bağçasının istifadəyə verilməsinə görə razılıq etmişlər.

**Tərtərdən** K.Quliyev, R.Paşalı və başqaları yazır: "Bizim övladlarımızın təlim-tərbiyə aldığı Tərtər şəhər 4 saylı körpələr evi-uşaq bağçasının əvvəlki vəziyyəti biz valideynləri, həmçinin orada təlim-tərbiyə işləri ilə məşğul olan müəllimləri narahat edirdi. Sizin qayğınız sayəsində artıq heç bir narahatlığımız qalmayıb".

**Lənkəranın** Mamusta, **Şəkinin** Orta Zəyzid, Baş Zəyzid və Vəzərət, **Ağcabədinin** Hindarx, **Ağdaşın** Ərəb, Kükəl, Hüşün, **Astaranın** Artupa, **Bərdənin** Mirasəfli, Qəhrəmanlı, Lənbəran, **Gədəbəyin** Arabaçı, **Goranboyun** Qızılhacılı, **Göyçayın** Şəhadət, **Xızının** Tıxlı, **Kürdəmirin** Pirili, Karrar, Şilyan, Mürtülü, Dəyirmanlı, Yenikənd, **Qaxın** İlisu, **Qəbələnin** Tikanlı, **Qobustanın** Bədəlli, Yekəxana, Ərəbqədim, Göydərə, **Qusarın** Böyük Muruq, Düztahir, Mucuq, Sudur, **Lerikin** Orand, **Masallının** Banbaşı, Yeni Zuvand, Böyük Xocavar, Əmirtürbə, **Neftçalanın** Boyat, Ballıcalı, **Oğuzun** Calut, **Salyanın** Xələc, Parça Xələc, Seyidan, Qarabağlı, Qaraçala, **Samuxun** Kövər, Qaraağaclı, **Tərtərin** Sarov, Ələsgərli, Hacıqərvənd, Buruc, Hüsənli, **Tovuzun** Kirən, **Yardımlının** Ostayır, Vərgədüz, **Zaqatalanın** Faldarlı, Muxax, **Zərdabın** İkinci Alıcanlı kənd və qəsəbələrindən və digər yerlərdən daxil olmuş məktublarda avtomobil yollarının təmir-tikintisinə, yeni yolların çəkilməsinə, bununla əlaqədar sərəncamların imzalanmasına görə razılıq ifadə olunur.

**Ölkəmizdə qazlaşdırma səviyyəsi ildən-ilə yüksəlməkdədir və artıq respublika üzrə qazlaşdırma 96 faizə çatıb.** Təbii qazla yeni təchiz olunan bir sıra yaşayış məntəqələrinin sakinlərindən bununla bağlı minnətdarlıq məktubları daxil olmaqdadır. **Ağcabədinin** Sarıcalı kəndindən E.Qasımova, Taynaq kəndindən A.Bağırov, **İsmayıllının** Qalacıq kəndindən T.Emanov, Z.Şalbuzova, T.Çiriyev və başqaları (cəmi 23 nəfər), **Lerikin** Veri kəndindən Ə.İbrahimov, **Neftçalanın** Astanlı kəndindən E.Bağırov və digər rayonlardan başqaları öz kəndlərinin təbii qazla təmin olunmasına görə razılıq etmişlər.

**İqtisadi və aqrar məsələlər barədə** müraciətlərdə **Pirallahıdan** A.Alışanov, **Gəncədən** sahibkar B.Əhmədov, **Yevlaxdan** E.Səttarov, **Ağstafanın** Aşağı Kəsəmən kəndindən G.Nəsibova ölkəmizdə əlverişli biznes mühitinin yaradılmasına və sahibkarlığın dəstəklənməsinə, **Beyləqandan** Ə.Nəbiyev kənd təsərrüfatının inkişafına göstərilən qayğıya, **Sabirabadın** Sarxanbəyli kəndindən D.Dövlətov, Əhmədabad kəndindən Ə.Deşadze, digər rayonlardan başqaları suvarma problemlərinin həllinə və təsərrüfatlarının su ilə təmin olunmasına görə razılıqlarını çatdırırlar.

**Məlum olduğu kimi, 2016-cı ildən başlayaraq ölkəmizdə pambıqçılığın inkişafına dövlət dəstəyi gücləndirilmişdir.** Fermerlərə subsidiyaların verilməsi, pambığın alış qiymətinin artırılması, suvarma suyu ilə təminatın yaxşılaşdırılması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsi və digər tədbirlər pambıqçılığın dirçəlməsinə güclü təkan olmuşdur. Qarşıya qoyulan tapşırıqların uğurla icrasının nəticələri artıq özünü göstərməkdədir. Məlumat üçün bildiririk ki, 2019-cu ildə ölkəmizdə 294 min ton pambıq tədarük edilmişdir. Bu, 2015-cı illə müqayisədə məhsulun 8 dəfədən çox artdığını göstərir. Fermerlərin görülən işlərdən, dövlət dəstəyindən razılığı böyükdür. **Beyləqandan** Ə.Nəbiyevin, **Neftçalanın** Boyat və Ballıcalı kəndlərindən İ.Qəfərov, A.Hacıyev və başqalarının (cəmi 58 nəfər), **Saatlının** Dəllər kəndindən Ə.Kərimovun, **Sabirabaddan** Ə.Mansurov və başqalarının (cəmi 56 nəfər), **Tərtərin** Bəyimsarov kəndindən 1-ci dərəcəli "Əmək" ordenli F.Vəliyevin, Buruc kəndindən İ.Qurbanovun, **Zərdabın** Bıçaqçı kəndindən E.Rəsulovun və digər rayonlardan başqalarının minnətdarlıq məktubları bununla bağlıdır. Məktubların bir çoxunda xüsusi vurğulanır ki, pambıqçılığın inkişafı ilə minlərlə insan özünə iş yeri tapmış, qazanc əldə etməyə başlamışdır.

Minnətdarlıq məktublarının bir qismi əhalinin içməli və suvarma suyuna olan tələbatını ödəmək üçün **subartezian quyularının qazılması ilə əlaqədar** olmuşdur. **Goranboyun** Tatarlı kəndindən G.Ocaqverdiyeva, Səfikürd kəndindən T.Aşırov və A.İsmayılov, Qızılhacılı qəsəbəsindən Q.Əhmədov, Fəxralı kəndindən S.Qurbanov, **Qəbələnin** Kürd kəndindən E.Alıyev, **Tərtərin** Bala Kəngərli kəndindən Ə.Əhmədov, Düyərli kəndindən S.Zeynalov, Kəngərli kəndindən X.Mirzəyev, Çaylı kəndindən V.Bayramov və digər rayonlardan başqaları bu məsələ ilə bağlı təşəkkür etmişlər.

**Xəzərin** Mərdəkan qəsəbəsindən R.Abbasova, **Qaradağın** Korgöz qəsəbəsindən Ə.Dünyamalıyev, **Pirallahıdan** T.Niftəliyev, **Sumqayıtdan** F.Zahidova, Corat qəsəbəsindən Ə.Cavadova, **Yevlaxın** Əxşam kəndindən O.Xəlilov, Balçılı kəndindən M.Nəbiyeva, **Abşeronun** Masazır qəsəbəsindən A.Babayev, **Ağdaşın** Nehrəxəlil kəndindən A.Kərimov, **Astaranın** Artupa kəndindən M.Quliyev, İ.Əhmədov, **Beyləqandan** Y.Məmmədova, **Füzulinin** Horadiz şəhərindən Ə.Hüseynov və T.Hacıyev, **Gədəbəyin** Çalburun kəndindən L.Quliyev, **Hacıqabulun** Meyniman kəndindən N.İsmayılov, **İsmayıllının** Cülyan kəndindən X.Ağayev, **Kürdəmirdən** S.Novruzov, **Qubanın** Qonaqkənd qəsəbəsindən Ə.Qəhrəmanov, Xanəgah kəndindən S.Absəlimov, G.Qurbanov, A.Kazımov, **Masallının** Köçəkli kəndindən X.Xəlilov, **Salyandan** E.Hacıyev, digər şəhər və rayon sakinlərinin məktublarında regionların sosial-iqtisadi inkişafı istiqamətində görülən işlərdən, əhalinin təbii qaz, içməli su və elektrik enerjisi ilə təchizatının, nəqliyyat infrastrukturunun yaxşılaşdırılmasından, müasir körpülərin, park və yaşıllıqların salınmasından, yeni "ASAN xidmət" mərkəzlərinin tikilib istifadəyə verilməsindən geniş bəhs olunur.

**Xızının** Giləzi qəsəbəsindən M.Məmmədov fikirlərini bu sözlərlə çatdırır: "Azərbaycanın bugünkü inkişaf səviyyəsi hər bir vətənpərvər insanda haqlı qürur hissi yaradır. Öz el-obasını, kəndini-kəsəyini abad və firavan görmək, sözsüz ki, hər birimizin arzusudur. Bu arzunu reallığa çevirən, ömrümüzə rəngarənglik gətirən məhz Sizsiniz, cənab Prezident!".

**Müraciətlərin bir çoxunda vətəndaşlar xalqın güzəranının yaxşılaşdırılmasında, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin milli maraqlarının və mənafeyinin müdafiə olunmasında, Azərbaycan mədəniyyətinin və incəsənətinin daha da inkişaf etdirilməsində və təbliğində dövlət başçısı ilə birlikdə hər zaman yüksək fəallıq nümayiş etdirən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın, həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın xidmətlərini təqdir edir, onların bir sıra mühüm təşəbbüslərini, Heydər Əliyev Fondu tərəfindən reallaşdırılan layihələri yüksək qiymətləndirirlər.**

**Xaçmazın** Köhnə Xaçmaz kəndindən S.Məmmədovanın məktubunda yer alan sözlər də bunu əks etdirir. O bildirir: "Pay torpağımda Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin həyata keçirdiyi "Sosial bağlar" layihəsi çərçivəsində yeni meyvə bağı salınaraq bizə təhvil verildi. Biz kənd adamlarıyıq, dolanışığımız torpaqdan, bağ-bostandan çıxır. Allahın köməyi ilə bir neçə il sonra bu bağdan bol məhsul götürəcəyik. Bu, dövlətin ailəmizin dolanışığına verdiyi töhfədir. Eyni zamanda, bununla özümüz üçün yeni iş yeri qazanmışıq".

Bundan başqa, **Xətai** rayonundan E.Məmmədov və başqaları "Təbiət naminə birləş, Həyat naminə birləş!" layihəsi çərçivəsində Xətai rayonunda "Gənclik" parkının salınmasını, **Nəsimi** rayonundan S.Zeynalova Mehriban xanım Əliyevanın 2019-cu il fevralın 14-də Gəncə şəhərinə səfərini və yerli sakinlərlə görüşüb onlarla səmimi söhbət etməsini, problemlərini dinləməsini, **Füzuli** rayonundan məcburi köçkün S.Məmmədova evlə təmin olunmasını, **Göyçayın** Alpout kəndindən F.Məmmədov və başqaları kəndlərində müasir tələblərə cavab verən yeni uşaq bağçasının inşa edilməsini, **İsmayıllının** Mollaisaqlı kəndindən R.Gidayev anadangəlmə ürək çatışmazlığı olan oğlunun uğurla əməliyyat olunmasını ölkə əhalisinə göstərilən qayğının bariz nümunələri kimi qiymətləndirmiş, bütün bunlara görə dərin təşəkkürlərini ifadə etmiş, **Sabirabaddan** İ.Əsgərov böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubiley tədbirləri çərçivəsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın regionlarda 650 min ağac əkmək təşəbbüsünü alqışladıqlarını, bu təşəbbüsə həvəslə və böyük ruh yüksəkliyi ilə qoşulduqlarını bildirmişdir.

**Yasamaldan** A.Xəliqov isə Prezidentə ünvanladığı məktubda bunları yazır: "Biz görürük ki, övladlarınız da Sizin kimi öz xalqına can yandırır, xalqın mənafeyinə xidmət edən mühüm təşəbbüslər göstərirlər. "Bizim həyət" layihəsi də bunlardan biridir. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən bu layihə çərçivəsində neçə-neçə həyət və məhəllə abadlaşdırılmış, həmin həyətlərdə insanlar, xüsusilə də uşaqlar və ahıllar üçün lazımi şərait yaradılmışdır".

**Minnətdarlıq məktublarının bir hissəsi ölkə vətəndaşlarının Prezident Administrasiyasına ünvanladıqları müraciətlərinin müsbət həll edilməsi ilə əlaqədar olmuşdur. Belə məktubların sayı ötən illə müqayisədə 62,9 faiz artmışdır. Bu, müraciətlərə baxılması işində diqqətin və tələbkarlığın daha da artırılmasının, nəzarətin gücləndirilməsinin nəticəsidir. Bir çox məktubda vətəndaşlar qaldırdıqları sosial problemlərin, ictimai əhəmiyyət kəsb edən məsələlərin həllindən razılıqlarını ifadə edirlər.**

**Abşeronun** Xırdalan şəhərindən Ş.Ələkbərov yaşadıqları ərazidə yolun və kanalizasiya xətlərinin təmir edilməsinə, **Ağcabədinin** Poladlı kəndindən C.Rüstəmov kənd sakinlərinin evlərinə içməli su xəttinin çəkilməsinə, **Xaçmazın** Hülövlü kəndindən Z.Paşayev kəndin əkin sahələrinin suvarılmasında yaranmış problemin həll olunmasına, **Şəmkirin** Tatarlı kəndindən S.Piriyeva, N.Qasımov və başqaları (cəmi 50 nəfər) içməli su xəttinin təmir edilməsinə, **Yardımlının** Bürzünbül kəndindən şəhid atası P.Sərhəngov yaşadığı kəndin yollarına asfalt çəkilməsinə, **Xətai** rayonundan şəhid ailəsinin üzvü R.Əzizova ailəsinə mənzil verilməsinə, **Xəzər** rayonundan A.Abdullayeva övladına əlilliyə görə sosial müavinətin təyin edilməsinə, **Nəsimi** rayonundan F.Əsgərov tikinti şirkəti tərəfindən ona dəymiş ziyanın ödənilməsinə, **Səbailin** Badamdar qəsəbəsindən H.Əlizadə yollarının təmir olunmasına, **Suraxanının** Qaraçuxur qəsəbəsindən II qrup əlil M.Ağabayeva övladlarının təhsil haqqına kömək göstərilməsinə, **Yasamaldan** şəhid anası S.Kərimova söküntü ərazisinə düşən evinə görə lazımi kompensasiyanın ödənilməsinə, **Yevlaxdan** G.Vəliyeva alimentlə bağlı qərarın icra olunmasına görə minnətdarlarını bildirirlər.

**Sosial məsələlər barədə edilmiş və müsbət həllini tapmış müraciətlərin bir qismində** işlə təmin olunma və ya əvvəlki işə bərpa edilmə, özəl şirkət tərəfindən vətəndaşa əməkhaqqı ödənilməsi məsələləri ilə əlaqədar təşəkkür ifadə olunur. **Nərimanov** rayonundan S.Əliyeva, **Sabunçudan** R.Zeynalov, **Mingəçevirdən** M.Camıyev, F.Şirinov, S.Sadıqova və başqaları, **Sumqayıtdan** Qarabağ döyüşləri əlili V.Hüseynov, **Ağcabədinin** Kürdlər kəndindən S.Süleymanov, **Beyləqandan** A.Cəfərova, **Cəlilabadın** Uzuntəpə kəndindən X.Mirzəyev, **Xocalıdan** və **Kəlbəcərdən** məcburi köçkünlər Y.Hüseynov və Q.Kazımov, **Lerikin** Siyov kəndindən Ş.Ağayeva, **Oğuzun** Tayıflı kəndindən E.Abduləzizov, **Zərdabın** Gəlmə kəndindən İ.İsgəndərov, digər şəhər və rayonlardan başqalarının məktubları bu qəbildəndir.

Bundan başqa, **Binəqədidən** O.Hacıyeva, **Xəzərin** Zirə qəsəbəsindən V.Məmmədov, **Qaradağın** Sahil qəsəbəsindən D.Kərimova, **Nizami** rayonundan (Bakı) G.Qasımova, **Suraxanının** Bülbülə qəsəbəsindən N.Muxtarova, **Naxçıvan** şəhərindən Q.Tağıyev, **Babək** rayonunun Qahab kəndindən N.Ələkbərov, **Şirvandan** R.Qənbərov, **Abşeronun** Saray qəsəbəsindən R.Mövsümova, **Ağcabədidən** R.Şirinov, **Ağdaşın** Yuxarı Qəsil kəndindən S.Hüseynov, **Astaradan** S.İsmayılova, **Balakənin** Qaravəli kəndindən İ.Əliyev, **Cəlilabaddan** S.Quliyev, **Füzuli** rayonundan T.Həsənov, **Göyçaydan** A.Hacıyev, **Xaçmazın** Arzu qəsəbəsindən F.Orucov, **Laçından** məcburi köçkün, I qrup Qarabağ əlili F.İsayev, **Lerikin** Arta kəndindən V.Cəfərov, **Siyəzənin** Yenikənd kəndindən T.Məmmədov, **Şabrandan** R.Gülməmmədov, **Şamaxının** Sabir qəsəbəsindən K.Bayramov, **Şəmkirin** Düyərli kəndindən R.Ələsgərova, **Tovuzun** Çeşməli kəndindən R.Namazov, **Zaqataladan** T.Həsrətov, **Zərdabdan** İ.Əsədov, digər şəhər və rayonlardan başqaları öz problemləri ilə bağlı müraciətlərinin müsbət həlli ilə əlaqədar görülən işlərə görə razılıq etmişlər.

**Azərbaycan Prezidentinin bölgələrə səfərləri, həmçinin Bakıda keçirilən mühüm tədbirlər zamanı ona şəxsən təqdim olunmuş müraciətlərin müsbət həlli ilə əlaqədar minnətdarlıq məktubları da maraq doğurur. Şəkinin** Kiş kəndindən N.Yusifli işlə, Ağsunun Çaparlı kəndindən S.Qənbərov taxılbiçən kombaynla təmin edilməsinə, **Ağdamdan** məcburi köçkün N.Əhmədova təhsil almasına kömək göstərilməsinə, **Qobustanın** Ərəbşalbaş kəndindən T.Orucov ağır vəziyyətdə olan övladının Bakıda yerləşən klinikalardan birində uğurla müalicə olunmasına, **Şamaxıdan** A.Əzizova mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına görə Prezidentə minnətdarlıq etməyi özlərinə borc bilmişlər.

> *"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır".*
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

Dövlət başçısı məmurlardan vətəndaş müraciətlərinə diqqətlə yanaşmağı tələb edir və onlara birmənalı olaraq tapşırır: **"Dövlət orqanları, mərkəzi və yerli icra orqanlarının nümayəndələri daim vətəndaşlara qayğı, diqqət göstərməlidirlər, daim vətəndaşların yanında olmalıdırlar".**

Müraciətlərin bir qismində vətəndaşlar məhz bu amili xüsusi vurğulayır, aidiyyəti dövlət qurumlarına ünvanladıqları müraciətlərə, həmçinin dövlət orqanlarında və yerlərdə keçirilən qəbullar zamanı qaldırılan məsələlərə daha diqqətlə yanaşılmasından yazır, bunun əsasında dövlət başçısının məmurlar qarşısında qoyduğu tələblərin və verdiyi tapşırıqların dayandığını qeyd edirlər. **Nərimanov** rayonundan Ə.Zeynalovun, **Lənkəranın** Kərgəlan kəndindən R.Səfərovun, **Füzulinin** Bala Bəhmənli kəndindən M.Əhmədovun, **Göygöldən** R.Əhmədovanın, **Kəlbəcərdən** məcburi köçkün S.Musayevin, **Şabranın** Aygünlü kəndindən M.Musayevin, **Tovuzun** Abulbəyli kəndindən M.Hümmətovun, digər şəhər və rayonlardan başqalarının məktublarını buna misal göstərmək olar.

**Azərbaycan dövlətinin humanizmə və insanların firavan həyatının təmin olunmasına yönəlmiş işləri təkcə ölkə hüdudları ilə məhdudlaşmır. Rusiyanın Şimali Osetiya-Alaniya Respublikasının paytaxtı Vladiqafqaz şəhərində** Azərbaycan və Qafqaz xalqları arasında tarixi dostluğun və qardaşlığın rəmzi sayılan Muxtarov məscidinin təmir-bərpa işlərinə verilən dəstək bunun bariz nümunəsidir. 2019-cu il yanvarın 26-da təmir-bərpa işlərindən sonra məscidin təntənəli açılışı olmuşdur. Həmin şəhərdən Şimali Osetiya Gənclər Təşkilatının sədri Z.Məmmədov bu barədə yazır: "Sizin yardımınız sayəsində bərpa edilərək yenidən istifadəyə verilən bu məscidin şəhər üçün əhəmiyyəti böyük olduğundan hər kəs bu işi çox müsbət qiymətləndirir. Biz fəxr edirik ki, doğma Azərbaycanımızın belə diqqətcil, xeyirxah, nümunəvi Prezidenti var".

**Amerika Birləşmiş Ştatlarının Vaşinqton** şəhərindən Ə.Bahaduri də Azərbaycanın uğurlarını xaricdən izləyən və bundan fərəhlənən həmvətənlərimizdən biridir. O, məktubunda bunları qeyd edir: "Xeyli vaxtdır Bakıya gəlməsəm də, Azərbaycan Respublikasının bütün uğur və inkişafını diqqətlə izləyir, aldığım hər xoş xəbərdən məmnunluq duyuram. Nə qədər bəxtiyarıq ki, müstəqil bir dövlət kimi yaşamaq səadəti bizə yenidən nəsib oldu. Sizin Azərbaycanın tərəqqisi naminə gördüyünüz bütün işlərə qəlbən sevinir, hər yeni zəfərə fərəhlənirik".

**Xarici ölkələrdən daxil olan minnətdarlıq məktublarında həmvətənlərimizlə yanaşı əcnəbi vətəndaşlar da Azərbaycan haqqında müsbət fikirlərini bildirirlər. Rusiya Federasiyasından** ölkəmizdə qonaq olmuş Fazil Vasilov və Nuraniya Zinnatullina, **Türkiyənin Ankara** şəhərindən Bekir Kılıç, **İstanbul** şəhərindən Fəridə Çidəm, **Ukraynanın Donetsk** vilayətindən Gennadi Ponçenko, 50 ildən çox Bakı şəhərində, hazırda isə **Yunanıstanın Nea Artaki** şəhərində yaşayan milliyyətcə rus Maya Quliyeva və digər ölkələrin vətəndaşları ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycanın sürətlə inkişaf etdiyini, gözəlləşdiyini, firavan və tolerant bir ölkəyə çevrildiyini xüsusi vurğulayırlar.

**Türkiyənin İstanbul** şəhərindən Engin Miroğlunun məktubunda qeyd olunur: "Ədalətliliyinizə və qurduğunuz firavan dövlətinizə görə Sizə "Əhsən!" deyirəm. Sizə və Azərbaycana heyran qalmışam və çox sevinirəm. Çünki bu qardaş ölkə bizim ikinci Vətənimizdir".

Ölkəmizin saysız-hesabsız nailiyyətlərini gözü götürməyən, öz şəxsi mənafeyi və ambisiyaları naminə Azərbaycana qarşı qarayaxma kampaniyaları aparan bəzi yerli və xarici qüvvələrin hərəkətləri vətəndaş məktublarının bir çoxunda qətiyyətlə pislənir, bununla bağlı təəssüf hissi ifadə olunur. Vətəndaşlar əmindirlər ki, belə hallar xalq-iqtidar münasibətlərinə, Azərbaycanın sürətli inkişafına təsir edə bilməz. Ölkəmiz növbəti illərdə də öz strateji xətti və inkişaf yolu ilə uğurla addımlayacaqdır. **Ağdamdan** Ç.Fətəliyev, M.Kazımov və başqalarının məktubunda deyildiyi kimi: "Ataların bir məsəli var: "Gördüyünü qoyub görəcəyə getmə". Biz son illərdə və yaxın keçmişdə baş verənləri görüb, həmin dövrləri yaşayan şəxslərik. Ona görə də kimin yanında olacağımıza qərar verməkdə çətinlik çəkmirik. Cənab Prezident, biz hər zaman dövlətimizin, dövlət başçımızın yanındayıq və Sizi dəstəkləyirik".

*(ardı var)*



***Süleyman İSMAYILOV,***
***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri***